Xalqın qəzeti!

# Xalq qəzeti

№ 85 (30489) 27 aprel 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Avropanın ikili standartlar mərkəzi



Səhifə ⇨ 8

# Azərbaycan dünyaya “Yaşıl gələcək” nümunəsi göstərir




Səhifə ⇨ 2

## Petelin “separatizm təəssübü” və İrəvan illüziya burulğanında



Səhifə ⇨ 8

## Ermənistanla sərhəddə sülh addımları

**Baş nazirinin müavini Şahin Mustafayevin Xidmətinin redaksiyamıza daxil olmuş son məlumatında bildirilir:**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin, təxminən, 35 faizi aprelin 26-dək yerinə yetirilib, 28 sərhəd dirəyi quraşdırılıb.

Hər iki dövlətin ekspert qruplarının işi davam edir.

**XQ**

**Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması ilə bağlı danışıqların getməsinə, paralel olaraq, delimitasiya və demarkasiya üzrə komissiyaların iclasında müəyyən nəticələrin əldə olunmasına baxmayaraq, bəzi ölkələr Hayastanı revanşizmə sürükləmək siyasətindən əl çəkmirlər. Onların arasında üç ölkəni xüsusi qeyd etmək lazımdır. Bunlar Fransa, Hindistan və Yunanıstandır. Onlar Cənubi Qafqazda sülhün əldə olunmasında maraqlı olmadıqlarını hər vəchlə nümayiş etdirirlər.**

# Sülh, yoxsa silahlanma?

*Ermənistanı silahlandıranlar həm də sülhdən dəm vururlar...*

Diqqəti çəkən həm də odur ki, bu ölkələrdən biri – Fransa uzun illər Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli üçün vasitəçilik edən, tarixin arxivinə gömülmüş ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən biri olub. Heç kəsə sirr deyil ki, bu başabəla qrup münaqişənin həllinə deyil, əslində, həll olunmamasına xidmət edib. Onun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi uzun illər ərzində Bakıya, İrəvana, həmçinin Xankəndiyə səfərlər edərək, ölkəmizi təslimçi sülhə sürükləməyə, yaranmış status-kvonu qəbul etdirməyə çalışıb. Həmsədrlərin fəaliyyəti, o cümlədən onların bölgəyə səfərləri Azərbaycan cəmiyyətində haqlı narazılıqla qarşılanıb. Rəsmi Bakı isə ərazilərinin işğal altında qalması ilə barışmayacağını dəfələrlə bildirib. Həmin ifadələr 2020-ci ilin payızında real həyata vəsiqə qazanıb. Ölkəmiz 44 gün ərzində düşməni darmadağın edərək onu təslimolma aktına imza atmağa məcbur edib.

Yeri gəlmişkən, qeyd edək ki, həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik müharibənin başa çatmasından az sonra – 2020-ci il dekabrın 12-də Bakıya səfər etmişdi. Həmin görüşdə çıxış edən Prezident İlham Əliyev demişdi: “Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir”.

Ermənistanın müharibədəki məğlubiyyəti, Fransanın da, necə deyərlər, üzündən maskasının düşməsinə səbəb oldu. Əslində, Paris elə müharibənin getdiyi günlərdə açıq ermənipərəstliyə keçmişdi. Fransanın bütün dövlət aparatının müharibə günlərində Azərbaycan əleyhinə fəaliyyət göstərdiyini desək, yəqin ki, mübaliğəyə yol vermiş olmarıq. Fransa dövlət başçısı, Xarici İşlər Nazirliyi dəfələrlə bəyanatlar verdilər. Paris bizə BMT-də həmlələr etdi. Ölkənin media orqanlarının müharibə ilə bağlı Azərbaycanın ünvanına atmadığı böhtan qalmadı. Azərbaycanın, guya, xaricdən, əsasən Suriyadan muzdlular cəlb etməsi feyk xəbərini ilk dəfə məhz Fransa mediası yaymışdı.



Fransa BMT Təhlükəsizlik Şurasının veto hüququna malik 5 daimi üzvündən biri kimi, Cənubi Qafqazda müsbət rol oynamaq üçün geniş potensiala malik olmasına baxmayaraq, həmin imkanlardan destruktiv məqsədlər üçün istifadə edir. Paris Ermənistana silah-sursat tədarük edir. Aydın məsələdir ki, bu silahlar Azərbaycana qarşı istifadə üçün verilib.

Şəxsən prezident Emmanuel Makronun “səyləri” nəticəsində Fransa–Azərbaycan münasibətləri hazırda 1991-ci ildən bəri ən soyuq dövrünü yaşayır. Bunun bariz göstəricisi aprelin 16-da Makronun Azərbaycandakı səfir Ann Buayonu məsləhətləşmələr üçün geri çağırması olub. Fransa burada da səmimiyyətdən uzaq, daha doğrusu, riyakar hərəkət edib. Səfirin geri çağırılması ilə bağlı məlumat yayan Fransa Xarici İşlər Nazirliyi bunun təqsirini Azərbaycanın üzərinə atmağa uğursuz cəhd edib.

**(ardı 5-ci səhifədə)**

# “Okampo kartı”, qondarma soyqırımı və ermənilərə zərər

*Erməni lobbisi beynəlxalq hüquq dələduzunu yenidən ortaya salıb*




**Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru, ekspert və vəkil Luis Moreno Okampo yenidən peyda olub. Daha doğrusu, dünya erməniliyi yenidən onun “xidmətlərinə” baş vurmaq qərarına gəlib. Bu, həmin Morenodur ki, ötən il çox “aktiv” idi və xüsusən də Laçın yolu ilə bağlı məsələni qabardaraq, Qarabağın erməni əhalisinə qarşı, guya, soyqırımı reallaşdırıldığını iddia edirdi. Ancaq bütün bunların heç bir faydası olmadı. Ortada argentinalı vəkilin korrupsioner, hüquq dələduzu obrazı canlandı. Görünür, o, hazırda öz obrazındakı mənfi çalarları bir qədər də zənginləşdirmək fikrindədir.**

Beləliklə, L.M.Okampo rəsmi Bakını “soyqırımı”na görə beynəlxalq məsuliyyətə cəlb etmək məqsədi ilə 28 səhifəlik yol xəritəsi hazırlayıb. Əlbəttə, dələduzun erməni lobbi və diaspor təşkilatlarından aldığı maliyyəni doğrultmaq üçün nələrsə gerçəkləşdirməli olduğunu anlamaq mümkündür. Ancaq belə yox. Məsələ ondadır ki, onun göstərdiyi mexanizmlərin heç birinin təcrübədə tətbiqi imkanları yoxdur. Ümumən, argentinalı vəkilin irəli sürdükləri bir daha onu göstərir ki, beynəlxalq hüququn köməyi ilə Azərbaycana qarşı mübarizə aparmaq fayda verməyəcək.

Bir məqamı da vurğulamağa ehtiyac var. Hazırda Okamponun açıqladığı Azərbaycanın “soyqırımı”na görə məsuliyyətə cəlbi mexanizmlərindəki ayrı-ayrı bəndlər Bakı – İrəvan münasibətlərinin tənzimləməsinə də mənfi təsir qazandırmaq potensialındadır. Nə qədər olmasa, xüsusən son vaxtlar sərhədlərin delimitasiyası prosesində müəyyən müsbət dinamika müşahidə olunmaqdadır. Mövcud məqam həm Ermənistan rəhbərliyi, həm də beynəlxalq ictimaiyyət tərəfindən vurğulanır və pozitiv qiymətləndirilir. Pozitivlik isə vahid təbiətə malik olmalıdır.

Yeri gəlmişkən, Ermənistan baş naziri Nikol Paşinyan bir müddət əvvəl sülh prosesindən danışarkən, onun hər iki ölkənin beynəlxalq miqyasda bir-birinə qarşı iddialardan geri çəkilməsinə şərait yaradacağına inandığını dilə gətirmişdi. Belə olan halda okampolara ehtiyac varmı? Ancaq, görünür, kimlərsə, daha doğrusu, hansısa beynəlxalq qüvvələr ehtiyacın olduğu qənaətindədirlər. İstər-istəməz şübhə yaranır ki, Paşinyan və komandası da onlarla işbirliyi içərisindədir. Hər halda, Okampo ortaya elə-belədən düşmür.

Bəli, BCM-nin keçmiş prokuroru hüquq adına tam cəfəng məsələləri gündəmə gətirir. Beynəlxalq ekspertlər də vəkilin Azərbaycanı məsuliyyətə cəlb etmək üçün irəli sürdüyü tezislərin hansısa əhəmiyyətinin olmadığını, sifarişlə, əvvəlcədən göndərilmiş təlimata uyğun hazırlandığını bildirirlər. Onlar vurğulayırlar ki, Okamponun işlətdiyi ifadələr erməni media orqanlarının redaksiya məqalələrindəki fikirlərdən o yana keçmir, faktlara deyil, fərziyyə və fantaziyalara əsaslanır. Məsələn, argentinalı dələduz “davam edən erməni soyqırımı” tezisini ortaya atır. Aydındır ki, bunun təsdiqi baxımından heç bir dəlil-sübut yoxdur, belə deyimlər yalnız təbliğat vasitəsidir. Başqa heç nə və peşəkar hüquqşünas bu cür sərsəm ritorikaya üstünlük verməməlidir.

Məlumdur ki, Okamponun, daha doğrusu, erməni lobbi və diaspor təşkilatlarının, elə Ermənistan hakimiyyətinin özünün də istədiyi Azərbaycana qarşı beynəlxalq miqyasda təzyiqlərin artması, sanksiyaların tətbiqidir. “Soyqırımı” məntiqi isə hazırda qondarma iddianın ildönümü baxımından tutarlı görünə bilər. Yəni, ümumi ab-havanın əlverişliliyi nöqteyi-nəzərindən. Ancaq hüquq bu sayaq isti yanaşmaları, sentimentallığı qəbul etmir, onun sərt və soyuq sifəti var. Deməli, erməni diasporunun “təşəbbüskarlığı” faydasızdır. Prinsipcə, indiki məqamda erməni lobbi və diaspor təşkilatları yalnız Ermənistan hakimiyyətinin bəyan etdiyi məsələlər üzrə hərəkət etməlidirlər. Ancaq birincilər tam mənasız yerə Okamponu dövriyyəyə atırlar.

**(ardı 5-ci səhifədə)**

# Çin bazarları Azərbaycan mallarına meydan açır



Səhifə ⇨ 7

## İxtisaslı tərbiyəçilər niyə işsiz qalırlar?

Səhifə ⇨ 11

# Azərbaycan Prezidentinin Almaniyaya işgüzar səfəri

## İlham Əliyev Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib.**



Azərbaycan Prezidenti İlham Əliyevi Almaniyanın Federal Kansleri Olaf Şolts və xarici işlər naziri xanım Annalena Berbok qarşıladılar.

Sonra tədbir iştirakçıları birgə foto çəkdirdilər.

**Aparıcı**: İndi isə biz Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin çıxışını dinləyəcəyik.

### Prezident İlham Əliyevin çıxışı

Hörmətli cənab Kansler.
Hörmətli xanım nazir.
Xanımlar və cənablar.




Əvvəlcə, "Petersberq Dialoqu"nda iştirak etmək üçün məni dəvət etdiyinə görə cənab Kanslerə təşəkkürümü bildirmək istəyirəm. Bu gün burada sizinlə olmaq böyük şərəfdir. COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir. Hazırlıq üçün bizim bir ildən də az vaxtımız qalırdı. Beləliklə, biz yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik.

COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq.

Bunları söyləyəndə, mən 120 ölkəni birləşdirən hərəkatda, yəni Qoşulmama Hərəkatında bir neçə il – dörd il ərzində sədrliyimizi nəzərdə tuturam. Biz yekdil qərarla seçildik və sədrliyimiz yekdil qərarla bir il də uzadıldı. Sədrliyimiz zamanı biz Hərəkatın bir çox üzvləri ilə olduqca məhsuldar münasibətlər qurduq. Sədrliyimiz COVID-19-a təsadüf etdi. Beləliklə, biz çox məsuliyyətlə davrandıq və 80-dən artıq ölkəyə humanitar, maliyyə və texniki yardım göstərdik. Bir sözlə, ümid edirəm ki, həmin beynəlxalq platforma bizə Qlobal Cənub ölkələrini ümumi gündəliyə əlavə etmək imkanını yaradacaq. Eyni zamanda, bir çox Avropa ölkələri ilə münasibətlər uğurla inkişaf edir. Avropa İttifaqının doqquz üzvü ilə Azərbaycan "Strateji Tərəfdaşlıq" haqqında razılaşmalar və bəyannamələr imzalayıb, yaxud qəbul edib. Bunları söylədikdə, ümid edirəm ki, həmin beynəlxalq əlaqələr bizə həmrəyliyi gücləndirməyə imkan verəcək. Bizə məhz bu lazımdır. Bizə maliyyə lazımdır. Bizə həmrəylik lazımdır və bizə ortaq məsuliyyət lazımdır.

Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Hesab edirəm ki, bu, həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Beləliklə, həmin müxtəlif rollar, fikrimcə, yaxşı həmrəylik ruhunu yaradacaq və bizə məqsədlərimizə nail olmağa imkan verəcək. COP-a ev sahibliyi edəcək ölkə kimi seçilməyimizdən dərhal sonra bəzi mətbuat orqanları əsas diqqətini bizim enerji quruluşumuza və enerji tarixçəmizə yönəltdilər. Mən hər zaman demişəm ki, neft və qaz ehtiyatları bizim günahımız deyil. Bu, Tanrıdan verilən vəsilədir. Buna görə biz mühakimə olunmalı deyilik. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, yaşıl gündəliklə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik.

Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının



bazarına gedir. Qeyd edilən Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda, yaşıl gündəliyimiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb.

Biz xarici tərəfdaşlar və sərmayədarlarla yaşıl keçid üzrə artıq nəhəng layihələrə başlamışıq. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Yalnız bu il ərzində 1300 meqavat Günəş və külək enerjisini istehsal etmək imkanını yaradacaq enerji stansiyalarının təməlqoyma mərasimi keçiriləcək. 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat Günəş və yaşıl enerji imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 Günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq. Bir sözlə, bu, əslində, hər kəs üçün uduşlu variantdır. Biz olduqca münbit sərmayə mühitini yaratmışıq. Qeyd etdiyim bütün həmin yaşıl enerji layihələri xarici sərmayədarlar tərəfindən maliyyələşdirilir.

Azərbaycan, sadəcə, öz infrastrukturunu və çox yaxşı sərmayə mühitini təmin edir. Biz Avropaya lazım olan böyük həcmdə təbii qaza qənaət edəcəyik. Eyni zamanda, hazırda Xəzərdə külək enerjisi stansiyalarından Avropaya vahid ötürülmə xətlərini, o cümlədən Qara dənizin dibi ilə kabeli çəkmək üçün texniki əsaslandırma işlərinin son mərhələsindəyik. Bu, dörd qiqavat həcmində Azərbaycanın yaşıl enerjisini Avropaya ixrac etmək imkanını yaradacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatlarımız 157 qiqavatdır. Bu, potensialın təzahürüdür. Uzun illər külək Bakı sakinləri üçün müəyyən narahatlıq yaradırdı. Lakin indi külək enerjisi böyük işlər, əməkdaşlıq və tərəfdaşlıq şəraitini yaradacaq və enerji təhlükəsizliyini gücləndirəcək. Bir sözlə, yekun fikrim ondan ibarətdir ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin, eyni zamanda, artıq qeyd etdiyim kimi faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar.

Cənab Kansler, xanım nazir, dəvətə görə bir daha minnətdaram. Sizin aranızda olmaqdan böyük şərəf və iftixar hissi duyuram. Sizə uğurlu müzakirələr arzulayıram. Sağ olun.

*

Sonra Almaniya Federativ Respublikasının Kansleri **Olaf Şolts** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident Əliyev. Mən Sizi növbəti İqlim Konfransının təşkilatçısı, bizim qonağımız kimi salamlamaqdan məmnunam.

Hörmətli xanım Annalena Berbok, cənab nazirlər.

Xanımlar və cənablar, sizin hamınızı Berlində salamlamaqdan çox məmnunam.

Kansler Olaf Şolts Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentinin iqlim dəyişikliyi ilə bağlı qarşıda duran vəzifələrin həlli baxımından mühüm əhəmiyyətini vurğuladı. O, yaşıl enerjiyə keçidlə bağlı bütün ölkələrin səyləri birləşdirməsinin vacibliyini xüsusi diqqətə çatdırdı. Artıq həmin istiqamətdə 78 dövlətin konkret iş birliyi yaratdığını dedi.

Olaf Şolts Dubayda keçirilmiş COP28-dən sonra bu sahədə məqsədyönlü tədbirlərin daha da gücləndirildiyini bildirərək dedi:

– Biz buradan Dubayda keçirilmiş beynəlxalq İqlim Konfransının uğurlarına boylanırıq. Eyni zamanda, biz səy göstəririk ki, bu ilin noyabrında Bakıda, gələn il isə Belemdə keçiriləcək konfranslarla bugünkü konfransın uğurunu əlaqələndirək. Bizim məqsədimiz "Petersberq İqlim Dialoqu" vasitəsilə buna töhfə verməkdir.

Almaniyanın Kansleri iqlim dəyişikliyi ilə bağlı 2030-cu ilə qədər dünyada əsaslı irəliləyişə nail olunacağına əminliyini vurğuladı. O, qarşıda duran vəzifələrin həlli üçün Azərbaycanda keçiriləcək COP29-a qədər də ardıcıl iş aparılacağını vurğulayaraq bildirdi:

– Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya birlikdə "üçlük" olaraq öz qarşılarına məqsəd qoyublar ki, COP29 və COP30 istiqamətində milli səviyyədə müəyyən edilmiş töhfələrin birgə təqdim olunması üçün fəaliyyət göstərsinlər. Məhz bu istiqamətdə olan format uzunmüddətlidir və mən bunu alqışlayıram. Federal hökumət bütün gücü ilə bunu dəstəkləyəcək. Xanımlar və cənablar, Almaniya artıq bu istiqamətdə kurs götürüb.

Kansler Olaf Şolts iqlim dəyişikliyi ilə bağlı tədbirlərin lazımınca həyata keçirilməsi üçün ilkin hesablamaya görə təqribən 2,4 trilyon dollar vəsaitin lazım olacağını bildirdi. O, yaşıl texnologiyalara keçid və qarşıda duran digər çoxsaylı vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün birgə səyləri daha da gücləndirməyin zəruriliyini bildirərək vurğulayıb:

– Bakıda keçiriləcək konfransda 2025-ci ildən sonra da iqlimin maliyyələşdirilməsi əsas danışıqlar predmeti olaraq qalacaq. On beş il bundan əvvəl olduğu kimi, biz artıq gələcəyin texnologiyasından qoşqu kimi istifadə etmirik. Biz artıq nail olmuşuq ki, texnologiyaların qlobal səviyyədə maliyyələşməsi, yayılması mümkün olsun, özü də mümkün münasib qiymətlərlə.

## İlham Əliyevin və Olaf Şoltsun dialoqu



**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub.**

## Liderlərin geniş tərkibdə görüşü



**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib.**

## Prezident İlham Əliyev və Kansler Olaf Şoltsun birgə mətbuat konfransı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts aprelin 26-da birgə mətbuat konfransı keçiriblər. Əvvəlcə Almaniya Kansleri bəyanatla çıxış etdi.**

### Kansler Olaf Şoltsun bəyanatı

– Hörmətli cənab Prezident, Berlinə xoş gəlmisiniz.

Mən Sizi bizim hər ikimizin elə indicə iştirak etdiyimiz "Petersberq İqlim Dialoqu" münasibətilə buraya təşrif buyurduğunuza görə təşəkkür edirəm və salamlayıram.

Siz son 14 ay ərzində Almaniyaya dörd dəfə səfər etmisiniz. Sonuncu dəfə fevral ayında Münxen Təhlükəsizlik Konfransına gəlmişdiniz. Bu, onu göstərir ki, bizim müzakirə edəcəyimiz mövzular çoxdur, bu gün olduğu kimi. Təbii ki, biz xüsusən də Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişə haqqında da söhbət etdik. Hər ikimiz eyni fikirdəyik ki, bu münaqişə ancaq sülh yolu ilə həll olunmalıdır. Bunun üçün şanslar mövcuddur. Ona görə də çox gözəl bir amildir ki, Siz hazırda baş nazir Paşinyanla birbaşa əlaqədəsiniz. Münxendə bizim sonuncu görüşümüz çərçivəsində hər ikiniz məni əmin etdiniz ki, açıq olan suallar öz həllini yalnız sülh yolu ilə tapacaq. Bu, məni sevindirir.

Mən icazənizlə, bir daha onu bildirmək istəyirəm ki, Almaniya sizi məsələnin uzunmüddətli və davamlı həllinin tapılmasında dəstəkləməyə hazırdır, əgər siz hər ikiniz bunu istəyirsinizsə. Mən hər iki tərəfi həvəsləndirmək istərdim ki, lazımi kompromislər üçün istək və cəsarət göstərəsiniz. Mən düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə şanslar və məsuliyyətlər gətirir.

Onu da qeyd edim ki, demarkasiya ilə əlaqədar ilkin razılıqlar bizi sevindirir. Yəni, eşitdik ki, razılıq əldə etmisiniz. İndi bu dinamikanı saxlamaq və bu istiqamətdə cəsarətli addım atmağınızı istəyirəm. Həm Sizi, həm də Sizin əks tərəfiniz olan baş nazir Paşinyanı buna çağırıram.

Bizim görüşümüzün növbəti mövzusu da Rusiyanın Ukraynaya hücumudur və bu müharibənin Azərbaycana, Cənubi Qafqaza olan təsiridir. Biz hamımız bilirik ki, Rusiya özünün beynəlxalq hüquqazidd müharibəsi ilə Ukraynaya yüz minlərlə ağrı-acı gətirib. Bu amansız qırğın öz sonunu tapmalıdır. Putin öz müharibəsini sona çatdırmalı, əsgərlərini geri çəkməli, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü axır ki, tanımalı, qəbul etməlidir.

Cənab Prezident, Sizin bugünkü səfəriniz əsasən iqlim siyasəti çərçivəsindədir və Azərbaycan COP29-un sədrliyini üzərinə götürüb, yəni, ev sahibi olacaq. COP28 çərçivəsində Dubayda vacib qərarlar qəbul olundu. Deməli, 2030-cu ilə qədər bərpaolunan enerji üç dəfə, enerji səmərəliliyi iki dəfə artırılmalıdır, metan tullantıları azaldılmalıdır. Həmçinin qeyd etmək istərdim ki, 2030-cu ilə qədər Azərbaycanın enerji sektorunda külək, Günəş və su elektrik enerjisinin payını 30 faiz artırması çox gözəl bir xəbərdir. Almaniya 80 faizi hədəfləyib.

Düşünürəm ki, yaşıl enerji və hidrogen enerjisi sahələrində əməkdaşlıq üçün regionda böyük potensial mövcuddur və alman şirkətləri Azərbaycanda əməkdaşlıq etməyə maraqlıdırlar, əsasən də, qeyd etdiyim kimi, hidrogen və bərpaolunan enerji sahələrində. Təbii ki, bunun üçün müvafiq çərçivə şərtləri mövcud olmalıdır.

Bakıda keçiriləcək Dünya İqlim Konfransı region üçün böyük şanslar gətirəcək. Biz iqlim siyasətinə aid sualları və Dubayda qəbul olunan qərarları birgə müzakirə edib yenidən qiymətləndirərək 2035-ci ilə qədər yeni iqlim məqsədləri, hədəfləri formalaşdıra və təbii ki, eyni zamanda, iqlim maliyyələşdirmə məsələsini də irəliyə apara bilərik.

(ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev və Kansler Olaf Şoltsun birgə mətbuat konfransı

(əvvəli 2-ci səhifədə)

Bildiyiniz kimi, Almaniya bu məsələdə özünün böyük töhfəsini göstərir. İqlim maliyyələşdirilməsi məsələsində biz büdcəmizdən 6 milyard avro ayırmışıq və ümumilikdə 10 milyard avro səfərbər etmişik. Almaniya bununla etibarlı maliyyəçi olaraq qalır və özünün ədalətli töhfəsini göstərir.

İndi isə biz təbii ki, investisiya tələbatı məsələsini diqqət mərkəzinə gətirməliyik, özəl sektora iqlim mühafizəsinə sərmayə ayırmağa imkan yaratmalıyıq. Eyni zamanda, bu günədək töhfə verən tərəflər daha çox töhfə verməlidir. Amma bununla yanaşı, digər ölkələr də iqlimin maliyyələşdirilməsi məsələsinə daha fəal töhfə verməlidirlər. Mən əmin olmaq istərdim ki, biz COP29 tədbiri çərçivəsində bununla əlaqədar müəyyən razılıqlar əldə edə biləcəyik.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində çox böyük rol oynayır və vacib tərəfdaşdır. Mən bu əməkdaşlıq üçün və enerji təchizatı sabitliyinə göstərdiyiniz vacib töhfənizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Biz, həmçinin sivil ictimaiyyət, azad media haqqında da müzakirə apardıq. Mən deyərdim ki, sivil cəmiyyətdə demokratiyanın ayrılmaz hissəsi canlı tənqidin mövcud olmasıdır. Fikir azadlığı, mətbuat azadlığı mövcud olmalıdır. Cənab Prezident, mən Sizə bu çətin dövrdə müxtəlif sahələr üzrə apardığımız danışıqlarımıza görə təşəkkürümü bildirmək istəyirəm. Biz hər ikimiz eyni fikirdəyik ki, mövcud olan əməkdaşlığı davam etdirə və dərinləşdirə biləcəyik. Sizə təşəkkür edirəm.

*

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Kansler.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, dəvətə görə Sizə təşəkkürümü bildirirəm. Siz də qeyd etdiyiniz kimi, son vaxtlar mənim Almaniyaya səfərlərim müntəzəm xarakter alıb. Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri öz sürətli inkişaf dövrünü yaşayır. Mən keçən ilin mart ayında burada idim, iki ay bundan əvvəl biz Münxendə cənab Kansler ilə görüşmüşdük. İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün səhər "Petersberq İqlim Dialoqu" forumunun işində iştirak edərkən bir daha öz niyyətimizi ifadə etdik. Sizə COP29-la bağlı Azərbaycana göstərdiyiniz dəstəyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Bizim komandalarımızın üzvləri bir-biri ilə sıx təmasdadırlar. COP29-a ev sahibliyi etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Biz buna hazırıq və Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir.

Bu gün səhər çıxış edərkən bildirdim ki, 2027-ci ilin sonuna qədər 9 Günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və Günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir. Biz indi Avropaya yaşıl enerjini ixrac etmək üçün fəal çalışırıq və hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaqdır.

Təbii qaza gəldikdə, Avropa İttifaqının Energetika Komissiyası Azərbaycanı panavropa qaz təchizatçısı kimi qiymətləndirir. Bizim Avropaya qaz təchizatımız strateji tərəfdaşlıq əsasında həyata keçirilir. 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan müvafiq memorandum qəbul etmişlər. 2027-ci ilə qədər biz Avropaya ixrac edəcəyimiz qazın həcmini 20 milyard kubmetrə çatdırmaq əzmindəyik. Avropada təbii qaza - yeni mənbələrdən olan qaza tələbat artır. Əgər 2021-ci ildə biz Avropa İttifaqı ölkələrinə 8 milyard kubmetr qaz təchiz etmişdiksə, bu il bu rəqəm 12 milyarda çatıb. Biz əlavə sərmayə qoyuruq, əlavə vəsait ayırırıq ki, Avropa ölkələrini bu məsələdə dəstəkləyək. Beləliklə, həm ənənəvi enerji növləri, eyni zamanda, bərpaolunan enerji növləri ilə zəngin Azərbaycan Avropa üçün uzun illər bundan sonra da əhəmiyyətli tərəfdaş olacaqdır.



Regional təhlükəsizliyə gəldikdə, Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını biz yüksək qiymətləndiririk. Cənab Kansler, Sizin dəvətinizlə Azərbaycan və Ermənistan xarici işlər nazirləri bu yaxınlarda Almaniyada görüşmüşlər. Almaniyanın xarici işlər naziri xanım Berbok da öz dəstəyini göstərmişdir. Növbəti görüş Qazaxıstanda keçiriləcək və beləliklə, biz sülh sazişinin imzalanmasına doğru əlavə addımlar atırıq.

Azərbaycan 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad etmişdir. Keçən ilin sentyabr ayında isə suverenliyini tam bərpa etmişdir. Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib. Təbii ki, bu, tarixi nailiyyətdir və onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, BMT Nizamnaməsinin 51-ci maddəsinə söykənərək öz ərazi bütövlüyümüzü hərbi-siyasi yollarla təmin etdik.

Bu gün isə artıq Azərbaycanla Ermənistan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası və hətta demarkasiyası prosesi də başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılır. Onu da bildirməliyəm ki, Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də öz fəaliyyətini bu gün səhər dayandırmışdır, buna artıq ehtiyac duyulmur.

Yəni, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə biz əməkdaşlıq etməyə hazırıq. Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq. Biz Almaniyanın bu sahədəki dəstəyini xüsusilə qiymətləndiririk və buna görə Sizə minnətdarıq.

*

Daha sonra Prezident İlham Əliyev və Kansler Olaf Şolts jurnalistlərin suallarını cavablandırdılar.

**Sual:** Cənab Prezident, Azərbaycanda insan hüquqları və mətbuat azadlığı ilə əlaqədar fikrinizi bilmək istərdim. Bir neçə kəskin tənqidi yanaşması olan İmran Əliyev adlı jurnalist həbs edilmişdi. İmran Əliyevin ailəsi deyir ki, guya, onun hüquqları pozulur və o, hazırda həbsdədir. Bununla əlaqədar nə deyə bilərsiniz?

Cənab Kansler, Siz cənab Prezidentlə insan hüquqları haqqında da ətraflı danışdınızmı?

**Prezident İlham Əliyev**: Azərbaycanda media azadlığı təmin edilir. Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir. Ona görə Azərbaycanı medianın inkişafını guya əngəlləmək istiqamətində atılmış addımları ilə tənqid etmək ədalətsiz olardı. Əgər internet azaddırsa, hansı məhdudiyyətdən söhbət gedə bilər?

Fərdi məsələlərə, hadisələrə gəldikdə isə təbii ki, hüquq-mühafizə orqanları bütün məsələləri araşdırırlar. Bir müddət bundan əvvəl xaricdən qanunsuz maliyyələşən bəzi media orqanlarının nümayəndələri istintaq orqanları tərəfindən saxlanılıb. Bu da Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə aparılıb. İstənilən ölkə öz qanunlarını müdafiə etməlidir. Əgər xaricdən qanunsuz vəsait alan hansısa media nümayəndəsi istintaqa cəlb edilibsə, o demək deyil ki, bizdə media azad deyil. Sadəcə olaraq, hər kəs qanun çərçivəsində fəaliyyət göstərməlidir. Biz istənilən ölkə kimi öz media məkanımızı xarici neqativ təsirdən qorumalıyıq və hər kəs qanunlara əməl etməlidir. Bir sözlə, demək istərdim ki, Azərbaycanda azad cəmiyyət var, insanlar tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar, o cümlədən media nümayəndələri də.

**Kansler Olaf Şolts:** Mən də suala cavab verim. Təbii ki, biz söhbətimiz çərçivəsində bu məsələyə də toxunduq və ətraflı danışdıq. Bildiyiniz kimi, biz federal respublikayıq, ümumiyyətlə, bütün dünya üzrə insan hüquqlarının qorunmasına öz töhfəmizi veririk. Təbii ki, hər bir ölkədə azad mətbuat olmalıdır, insan hüquqları pozulmamalıdır. Bu, ümumi bir vəziyyətdir. Əlbəttə, bu da özlüyündə bir sirr deyil ki, müxtəlif ölkələrdə bu vəziyyətin yaxşılaşdırılması üçün potensial var.

**Sual:** Mən Kərimova Fatimə, "Mikroskop media"nın həmtəsisçisiyəm. Azərbaycanlı jurnalistəm. Həmkarım sualımın əsas hissəsini məndən əvvəl verdi. Ona görə mən Sizə digər sualımı verəcəyəm. Cənab Prezident, müharibədən sonra Qarabağda yenidənqurma-bərpa işləri başlayıb və bir çox layihələr icra olunur. Bu müddət ərzində buraya milyardlarla manat yatırılıb. Amma həmin layihələrlə bağlı bir çox detallar şəffaf deyil, yəni, həm ictimaiyyətin, həm jurnalistlərin bu məlumatlara əlçatanlığı kifayət qədər deyil. Həm tenderlərin, tenderlərdə iştirak edən şirkətlərin və digər şirkətlərin seçilməsi və sair kimi detallar. Mən bunun səbəbini öyrənmək istəyirəm ki, bəzi məsələlər niyə qapalıdır və niyə bu detallar şəffaf deyil, açıq deyil bizə. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Əslində, sualınız təəccüb doğurur, çünki Qarabağda və Şərqi Zəngəzurda bütün bərpa, yenidənqurma işləri maksimum şəffaf şəkildə aparılır. Ayrılan vəsaitlə bağlı, müntəzəm olaraq ictimaiyyətə, o cümlədən media nümayəndələrinə məlumat verilir və sirr deyil. Bu yaxınlarda elan edilmiş məlumat göstərir ki, işin həcmi doğrudan da genişmiqyaslıdır. Bu ilin sonuna qədər, müharibə başa çatandan sonra Qarabağa və Şərqi Zəngəzura 12 milyard manat, yəni, təqribən 7 milyard dollar ətrafında vəsait yatırılır və yatırılacaqdır. Görülən bütün işlər göz qabağındadır. Tender prosedurlarına tam əməl edilir. Mən sözün düzü bilmirəm, sizdə bu məlumat haradandır. Yəqin ki, siz bunu hansısa dəqiqləşdirilməmiş mənbədən götürürsünüz. Amma azad olunmuş torpaqlara müntəzəm surətdə media turları təşkil edilir. O cümlədən xarici media nümayəndələri də vəziyyətlə tanış olurlar. Əgər sizin belə imkanınız olsaydı, görərdiniz ki, Ermənistan bizim torpaqlarımızı necə viran qoyub və azad edilmiş torpaqlara bu gün qayıdan vətəndaşlar hansı sevinc hissləri yaşayırlar.

Müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır. Bu, ümumxalq məsələsidir. Necə ki, torpaqlarımızın azad edilməsi ümumxalq məsələsi idisə, bu gün torpaqların bərpa edilməsi də ümumxalq məsələsidir. Mən bilirəm ki, Azərbaycan mediasının mütləq əksəriyyəti bizim fəaliyyətimizi bəyənir, dəstəkləyir və görülən işləri də təqdir edir.

**Sual:** Hörmətli cənab Kansler, iqlim məsələlərinə dair sualım var. İkinci dəfədir, beynəlxalq İqlim Konfransına o ölkələr tərəfindən ev sahibliyi edilir ki, onlar qazıntı enerjisi istehsal edirlər. Bu, nəyə görə belədir? Bunun səbəbi nədir? İkinci sualım, Siz cənab Makronun dünənki çıxışı ilə əlaqədar bəzi şərhlər vermişdiniz. Sizin şərhlərinizi dəqiq bilmək istərdik. Siz Avropa Birgə Fondu ilə əlaqədar bəzi şərhlər vermişdiniz, xahiş edirəm, onu aydınlaşdırın.

Cənab Prezident, Sizə də konkret bir sualım var. Bilmirəm, Siz yaxın Şərqdə - Qəzza zolağında baş verən hadisələr haqqında da danışmısınızmı? Elə fikirlər var ki, guya, İsrailin Baş nazirinə qarşı həbs cəzası, həbs əmri mövcuddur. Belə bir fikir varmı? Siz belə bir fikri dəstəkləyərdinizmi? Təşəkkür edirəm.

**Kansler Olaf Şolts:** Sualın birinci hissəsi ilə bağlı qeyd etmək istərdim ki, mən qalıq enerjini istehsal edən ölkələrin iqlim konfransına ev sahibliyi etməsinə şans kimi baxıram. Ona görə ki, burada şanslar yaranır və həmçinin müəyyən maliyyələşdirmə məsələlərini də nəzərə almaq lazımdır. Bir dəfə Almaniya da öz böyük maliyyə töhfəsini verib. Düşünürəm ki, bu kimi ölkələrin də buraya qatılması, konfransı təşkil etməsi, dəstəyini göstərməsi böyük şansdır. Nəyə görə yox? Yəni, təbii ki, eyni zamanda, qalıq enerjinin belə deyək, miqdarını azaltmaq da bir iqlim mühafizəsi kontekstində olan mövzulardan biridir. Həmçinin enerji təhlükəsizliyi məsələləri nəzərə alınmalıdır, amma bununla yanaşı, bərpaolunan enerji məsələləri də diqqət mərkəzində qalmaqdadır. Yəni, düşünürəm ki, bu, bizlərə müəyyən şanslar verən simbiozdur, qısa desəm çətin yoldur, qəliz yoldur, amma ağıllı yoldur. Sonuncu COP da çox gözəl keçmişdi. Ona görə də düşünürəm ki, qarşıdan gələn konfrans da uğurlu olacaq. Mən qarşıdakı tədbirə də sevinirəm. Orada geniş debat və diskussiya aparılmalıdır.

**Prezident İlham Əliyev**: Bu gün biz cənab Kanslerlə daha çox Almaniya-Azərbaycan ikitərəfli münasibətlərini və regional təhlükəsizlik məsələlərini, o cümlədən COP29 ilə bağlı hazırlıq işlərini müzakirə etmişik. Digər beynəlxalq məsələlərin müzakirəsi aparılmamışdır.

O ki qaldı, Yaxın Şərqdəki vəziyyətə, Azərbaycanın mövqeyi hər zaman birmənalı olub. Fələstin xalqının azadlığı və müstəqilliyi hər zaman Azərbaycan tərəfindən dəstəklənib. Yaxın Şərqdə müharibənin və hərbi əməliyyatların tezliklə dayandırılması hər zaman Azərbaycan tərəfindən ifadə edilib.

Qaldı ki, sualın digər hissəsinə, deyə bilərəm, neftlə, qazla zəngin olan ölkələr məhz buna görə qınaq obyektinə çevrilməməlidir. Dünyada bu məsələ ilə bağlı ayrı-seçkilik, diskriminasiya aparılmamalıdır. Neft və qaz Tanrıdan verilən böyük nemətdir və ölkələrə bu nemətə görə qiymət verilməlidir. Azərbaycan neftdən, qazdan əldə olunmuş gəlirlərdən düzgün istifadə edir. Buna görə də Azərbaycanda yoxsulluq şəraitində yaşayanların faizi son 20 il ərzində 50 faizdən 5 faizə düşmüşdür. Məhz buna görə Azərbaycan öz iqtisadi potensialını ortaya qoya bilib. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 7,9 faizinə bərabərdir. Neftdən, qazdan gələn gəlirlər cəmiyyətdə ədalətli bölünür və bu gün, ilk növbədə, Qarabağın və Şərqi Zəngəzurun bərpasına istiqamətləndirilir.

Ona görə neftlə, qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalıdır. Bu ölkələr, o cümlədən bizdən əvvəl COP-u keçirmiş Misir və Birləşmiş Ərəb Əmirlikləri iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərmişdir və bu gün Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya, - bildiyiniz kimi, Braziliyada da təbii sərvətlər kifayət qədər böyükdür, - üçlük şəklində fəaliyyət göstərirlər. Bizim niyyətimiz budur. Biz istəyirik ki, əldə edilmiş gəlirləri yaşıl enerjiyə sərf edək, bu istiqamətdə addımlar atırıq və COP29 da qarşıdurma arenası olmayacaq. Azərbaycan ev sahibi kimi körpülər yaradacaq. Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən yaşıl enerjiyə keçidlə və iqlim dəyişikliyi ilə bağlı.

**Sual:** Vüqar Seyidov, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). Mənim sualım cənab Kanslerədir. Cənab Kansler, Almaniyanın Federal Daxili İşlər Nazirliyinin 2023-cü ilin iyun ayında yaydığı islamofobiya üzrə ekspertlər cəmiyyətinin hesabatına əsasən, ölkədə keçirilmiş sorğunun iştirakçılarının təxminən yarısı islamofob fikirlər səsləndirmişdir. Almaniya cəmiyyətində ksenofobiya və irqçilik kimi təhlükəli tendensiyaları Siz nə ilə izah edə bilərsiniz və ümumiyyətlə, bu istiqamətdə Sizin hökumətiniz hansı tədbirlər görür? Təşəkkür edirəm.

**Kansler Olaf Şolts**: Siz bildiyiniz kimi, dövlət bu məsələyə çox böyük diqqətlə yanaşır. Biz qanun çərçivəsində hərəkət edirik və digər siyasi maarifləndirmə tədbirləri həyata keçiririk. Ümumiyyətlə, müsəlmanlara qarşı, rasizm məsələlərinə çox ciddi yanaşırıq və bunun qarşısının alınması üçün əlimizdən gələni edirik. Dünya miqyasında siz müqayisə etsəniz görərsiniz ki, burada səylər çoxdur. Almaniya o ölkədir ki, bir çox millətlərin üzvləri burada bir-biri ilə sülh şəraitində yaşayırlar və burada dini mənsubiyyət, dini fərqlilik heç bir rol oynamır.

# Prezident İlham Əliyevin Almaniyanın xarici işlər naziri ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşü olub.**

Annalena Berbok "Petersberq İqlim Dialoqu" çərçivəsində aparılmış müzakirələrin vacibliyini və Prezident İlham Əliyevin bu əsnada çıxışını qeyd etdi. O, COP29-la əlaqədar Almaniya ilə Azərbaycanın müvafiq heyətləri arasında sıx əməkdaşlığın olduğunu və mütəmadi əsasda məsləhətləşmələrin aparıldığını müsbət hal kimi qiymətləndirdi. Almaniyanın Azərbaycanın COP29-a sədrliyinin dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəyini dedi.

Azərbaycan Prezidenti COP29-la əlaqədar Almaniya ilə əməkdaşlığa və "Petersberq İqlim Dialoqu" formatındakı müzakirələrə dəvətə görə bir daha təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi prosesi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin tərkibi olaraq ərsəyə gəlib.

Annalena Berbok Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini bundan sonra da dəstəkləyəcəyini vurğuladı.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında keçirilmiş görüşün önəmini qeyd etdi, bu görüş çərçivəsində aparılmış müzakirələrin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə ciddi təkan verdiyini bildirdi.



Dövlətimizin başçısı Almaniya xarici işlər nazirinin dəstəyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında sülh müqaviləsi üzrə danışıqların aparıldığını vurğuladı, bunun sülh müqaviləsi üzrə danışıqların irəli aparılması üçün vacib addım olduğunu dedi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlar və dialoq vasitəsilə sərhədlərin delimitasiyası, hətta demarkasiyası sahəsində əldə olunmuş uğurları müsbət addım kimi qiymətləndirdi, regionda sabitliyin artıq təmin olunduğunu qeyd etdi.

Azərbaycanın sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyən Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinə sadiq olduğunu vurğuladı.

Dövlətimizin başçısı Qazaxıstan tərəfinin təklifi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində növbəti görüşün Qazaxıstanda keçiriləcəyini dedi.

# İlham Əliyevin Frank-Valter Ştaynmayerlə təkbətək görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.**

# BƏƏ COP29-la bağlı ölkəmizlə sıx əməkdaşlığı davam etdirəcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü keçirilib.**

Sultan Əhməd Əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir BƏƏ-nin COP28-in sədri və ev sahibi olaraq Azərbaycanla yaxından işləməkdən məmnunluğunu bildirərək, COP29 ilə bağlı BƏƏ-nin Azərbaycana dəstəyini əsirgəməldiyini diqqətə çatdırdı, bu istiqamətdə birgə işləməyə və əməkdaşlığa hazır olduqlarını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla BƏƏ arasında birgə fəaliyyətin əhəmiyyətini və COP28-də "üçlük" mexanizminin yaradılmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin yaşıl enerji sahəsinə BƏƏ tərəfindən yatırılan investisiyalar nəticəsində bərpaolunan enerji ixracı imkanlarının yaranması və bu istiqamətdə potensialın artması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.

# Anlaşma Memorandumu imzalanıb




**Aprelin 26-da Heydər Əliyev Fondunda Türkiyənin Sıfır Atık Fondunun nümayəndələri ilə görüş keçirilib.**

Görüşdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi fondun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr haqqında danışıb.

2004-cü il mayın 10-da yaradılan və bu il fəaliyyətinin 20 ili tamam olan Heydər Əliyev Fondunun prioritet sahələrindən birinin ətraf mühitin qorunması üzrə layihələr olduğunu bildirən Anar Ələkbərov fondun bu istiqamətdə reallaşdırdığı və nəzərdə tutulan tədbirlərini diqqətə çatdırıb.

Görüşdə bu il Azərbaycanın COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi edəcəyi, ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulduğu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş əraziləri-mizi "Yaşıl enerji" zona elan etdiyi, həmin ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsinin planlaşdırıldığı bildirilib. Qeyd edilib ki, Heydər Əliyev Fondu ətraf mühitin qorunması istiqamətindəki layihələri ilə ölkəmizdə bu sahədə reallaşdırılan işlərə önəmli dəstək verir.

Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə yaradılan Sıfır Atık Fondunun Qəyyumlar Şurasının sədri Samed Ağırbaş təmsil etdiyi qurumun əsas məqsədinin ətraf mühitin, insan sağlamlığının qorunması olduğunu bildirib, tullantı sularının təkrar istifadəsi və emalının təşviqi kimi məsələlərə xüsusi önəm verdiklərini və bu istiqamətdə həyata keçirilən layihələri qeyd edib.

Görüşdə Heydər Əliyev Fondu ilə Sıfır Atık Fondu arasında COP29 çərçivəsində, eyni zamanda, ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığı, mədəni mübadilənin təşviqi və mədəni irsin qorunması sahəsində birgə layihələri nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.

**XQ**

# Prezidentlərin geniş tərkibdə söhbəti



**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib.**

Görüşdə "Petersberq İqlim Dialoqu"-nun əhəmiyyəti və Prezident İlham Əliyevin bu tədbirdə çıxışı qeyd olundu.

Dövlətimizin başçısı tədbirə dəvətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı COP29-la əlaqədar Almaniya ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq və heyətlər arasında görüşlərin önəmi xüsusi vurğulandı. COP29-la bağlı yaradılan "üçlük" mexanizminin əhəmiyyətinə toxunuldu, Almaniyanın COP29-la əlaqədar Azərbaycana bundan sonra da dəstək göstərəcəyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi, həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb.

Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kansleri Olaf Şoltsun dəstəyi ilə Ermənistanın baş naziri ilə keçirilmiş görüşü, bu görüş çərçivəsində də məhz delimitasiya və demarkasiya məsələlərinin, sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələrin olduğunu qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, Almaniyanın xarici işlər nazirinin dəstəyi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri arasında görüş keçirildi və bu görüşdə sülh müqaviləsi üzrə əsaslı müzakirələr aparıldı.

Söhbət zamanı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində iki ölkə arasında birbaşa danışıqlarda əldə edilmiş nəticələr qeyd olundu.

Prezident İlham Əliyev Qazaxıstan tərəfinin təklifi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə danışıqları davam etdirmələri üçün növbəti görüşün Qazaxıstanda təşkil olunacağını dedi.

Frank-Valter Ştaynmayer qeyd etdi ki, Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyini yaxından dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidentinin Almaniyaya səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri aprelin 26-da başa çatıb.**

**AZƏRTAC**




# Milli Məclisin sədri Monteneqroda

**Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqroya rəsmi səfəri çərçivəsində bu ölkə parlamentinin Sədri Andrija Mandiçlə görüşüb. Əvvəlcə, tərəflər arasında təkbətək görüş keçirilib. Söhbət zamanı ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Görüşdən sonra Sahibə Qafarova xatirə kitabını imzalayıb.**



Nümayəndə heyətlərinin iştirakı ilə görüş davam edib. Milli Məclisin Sədrini səmimiyyətlə salamlayan Andrija Mandiç bu səfərin ölkələrimiz və qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib. Həmçinin ölkələrimizin dost və etibarlı tərəfdaş olduqları, bir çox məsələlərdə ortaq dəyərləri və fikirləri bölüşdükləri qeyd edilib.

A.Mandiç ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb.

S.Qafarova ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin və görüşlərin müstəsna rolunu qeyd edib. O, Azərbaycanın öz ərazilərini 30 illik işğaldan azad edərək ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini xatırladaraq deyib ki, hazırda Azərbaycanın təşəbbüsü ilə ölkəmizin irəli sürdüyü 5 prinsip əsasında sülh sazişinin imzalanmasına heç bir manea yoxdur.

S.Qafarova təəssüflə bəzi dövlətlərin, ilk növbədə, Fransanın regionumuzda gərginliyi artırmaq üçün addımlar atdığını bildirib. Spiker diqqətə çatdırıb ki, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlarda Azərbaycanın yeni müharibəyə hazırlaşması yönündə uydurma, həqiqətdən uzaq iddialarla ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, anti-Azərbaycan siyasəti həyata keçirir.

Aprelin 25-də Avropa Parlamentinin Azərbaycanda vətəndaş cəmiyyəti və insan hüquqları məsələsinə dair obyektivlikdən uzaq, yalan və saxta məlumatlar üzərində qurulmuş qətnamə qəbul etdiyini xatırladan S.Qafarova deyib ki, AP-nin bu addımı ölkəmizə qarşı qərəzli siyasi aksiyadır.

Monteneqro Parlamentinin sədri Andrija Mandiç isə deyib ki, onun ölkəsi hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. O, imzalanacaq sülh sazişinin regionda sülh və əməkdaşlığa töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdən sonra iki ölkənin spikeri Monteneqro parlamentində yaradılan "Barbara Prammer Demokratiya Emalatxanası"nda da iştirak ediblər.

**Ə.BƏDƏLOV**
**XQ**

# Bakı Marafonu iştirakçıları qeydiyyatdan keçib

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə mayın 5-də keçiriləcək "Bakı Marafonu 2024"ə qeydiyyat başa çatıb.**

7-ci dəfədir təşkil ediləcək Bakı Marafonu üçün 15 mindən çox iştirakçı qeydiyyatdan keçib.

Marafonda 200-dən çox fəxri qonağın, 6 mindən çox tələbənin iştirakı gözlənilir. Yarışa Azərbaycan vətəndaşları ilə yanaşı, ölkədə yaşayıb-çalışan əcnəbilər, həmçinin digər ölkələrdən də qoşulanlar var. Belə ki, qeydiyyatdan keçənlərin siyahısında Almaniya, Çin, Fransa, Gürcüstan, Hindistan, İraq, İran, İtaliya, Kanada, Qazaxıstan, Pakistan, Rusiya, Suriya, Türkiyə, Ukrayna və digər ölkələrin vətəndaşları yer alıblar.

Marafonun marşrutu: Dövlət Bayrağı Meydanı - Dənizkənarı bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ Şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, "Cavanşir" körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca hərəkət edərək (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı.

# Azərbaycan–Türkiyə–Rusiya: Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiya

III MƏQALƏ

**Müxtəlif ibrətverici tarixçələrin cəmləşdirilməsi böyük zənginlikdir.**

**İ.Höte**

Böyük şair İ.Hötedən iqtibas gətirdiyimiz bu fikir hər bir insan və ölkə üçün ibrətamiz ola biləcək tarixi hadisələri ümumiləşdirib, onlara müasirlik prizmasından baxmağın əsl zənginlik olması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev də daim öyrədirdi ki, tarix çətin imtahançıdır, onun sınaqlarından çıxmağı öyrənmək lazımdır. Bunun üçün tarixin ibrət dərslərini yaxşı mənimsəmək gərəkdir.

Azərbaycan Respublikası bugünkü fəaliyyəti ilə sübut edir ki, Avrasiyada tarixin ibrət dərslərindən düzgün nəticə çıxaran müstəqil dövlətdir. Azərbaycanın Türkiyə və Rusiya ilə geosiyasi müttəfiqliyi bu tezisin işığında çox maraqlı və əhəmiyyətli görünür.

## Yeni mərhələnin geosiyasəti

Məsələ, sözün həqiqi mənasında, dünyanın geosiyasi və mədəni taleyi ilə bağlıdır. İndi elm adamları və xüsusilə filosoflar dünyanın gələcək obrazının mənzərəsini proqnozlaşdırmağa çalışırlar. Müxtəlif ssenarilərdən bəhs edirlər. Lakin bütün hallarda bəşəriyyətin mövcudluğunu saxlamaq, müəyyən sosial nizama nail olmaq və davamlı inkişaf etmək ön plana çıxarılır. Burada "davamlı inkişaf" termini insan həyatının bütün aspektlərini əhatə edən və müsbət həyat şəraiti yaradan tərəqqi kimi başa düşülür. Ona mane ola biləcək faktorlar sırasında isə yeni texnologiyalar, süni intellektin daha yüksək səviyyədə funksional özəlliklərə sahib olması və təhlükəsizliklə bağlı meydana gələ biləcək risklər ayrıca yer tutur.

Məsələn, Henri Kissincer həmmüəllif olduğu (həmmüəlliflər yeni texnologiyalar üzrə tanınmış mütəxəssislərdir, biri "Google"ni yaradandır) son kitabında süni intellektin dünya üçün təhlükəli ola biləcəyindən bəhs edir. Səbəb ondan ibarətdir ki, müasir hərbi sənaye süni intellekt komandaları yarada bilir ki, müəyyən vaxtdan sonra onlar insanı eşitməyib özləri müstəqil qərarlar qəbul edə bilərlər. Bu süni varlıqlar kollektiv halda avtonom fəaliyyət göstərsələr, dünya təhlükəyə düşər.

Bunun qarşısını necə almaq olar? H.Kissincer siyasi liderlərin yeni fəlsəfəyə əsaslanmalarını tövsiyə edirdi. Bu "yeni xilasedici fəlsəfə" isə hələ yoxdur. Ancaq konkret və lokal məkanlarda onun ilk əlamətləri və cizgilərindən danışmaq olar. Həmin əlamətlər isə başlıca olaraq yeni liderliyin tərkibində özünü göstərir. Deməli, Azərbaycanın yeni geosiyasi kursunun sistemli və ardıcıl aspektini xarakterizə edən faktorlar, əslində, yeni xilaskarlıq fəlsəfəsinin parametrləri sayıla bilər. Burada ön plana bir neçə məqam çıxır.

## Ədalətli və açıq qonşu

Prezident İlham Əliyev ADA-da keçirilən tədbirdə çıxışı zamanı Azərbaycanın ədalətli və açıq qonşuluq siyasəti yeritdiyini bəyan etmişdir. Bu iki özəllik, bütövlükdə, Azərbaycan xarici siyasətinin mühüm elementləridir. Dövlətin ədalətli olması qonşuları necə varsa, elə qəbul etməkdən başlanır. Yəni qonşuya onu dəyişmək mövqeyindən deyil, dialoqa girmək, qarşılıqlı fayda verə biləcək əməkdaşlığa cəlb etmək məqsədilə yanaşmaq doğru sayılır. Rusiya böyük və güclü dövlət kimi qonşudursa, bu reallıq fonunda onunla münasibət qurmaq lazım gəlir. Bu zaman, Azərbaycanın cəlbediciliyi daha da artır. Çünki ədalətliliklə yanaşı, açıq olmaq, hər bir məsələni səmimiyyət və şəffaflıqla müzakirə etmək əməkdaşlığa aparan yoldur. Həmin kontekstdə ədalətliliklə açıqlığın sintezi etibarlılıq səviyyəsini yüksəldir. Nəticədə dövlətlər arasında qarşılıqlı etimad yaranır. Məhz bu aspektdə Azərbaycanla Rusiya arasında Cənubi Qafqazla bağlı ümumi baxışların formalaşması qlobal miqyasda geosiyasət üçün vacib faktordur. Onun ayrıca səbəbləri də mövcuddur.

Məsələ Rusiyanın Qərbdə yaradılmış imici ilə bağlıdır. Etiraf edək ki, bu imic müsbət təsir bağışlamır. Buna görə də Qərb Rusiya ilə əlaqələr quran hər bir dövləti günahkar sayır və ona qarşı müəyyən addımlar atır. Deməli, faktiki olaraq, söhbət Rusiya istiqamətində qətiyyətli siyasi mövqedən və müstəqil siyasətdən gedir. Həm də bu xətt elə aparılmalıdır ki, heç bir tərəfin ciddi müqavimətinə tuş gəlməsin. Yalnız belə bir siyasəti davamlı olaraq yürüdən müstəqil dövlət əsl mənada dünyanın yeni geosiyasi nizamına və təhlükəsizliyinə töhfə vermiş olur.

Bu mənada Azərbaycanın Rusiya ilə konstruktiv əlaqələri Qərbin ciddi müqaviməti olmadan həyata keçirməsi unikal geosiyasi faktordur. Burada maraqlar balansını Azərbaycan dəqiq yaratmışdır. Bakının Qərblə əməkdaşlığı konkret proqramlara, layihələrə və açıq siyasi-diplomatik fəaliyyətə əsaslanır. Avropa İttifaqının 9 dövləti ilə strateji tərəfdaşlıq sazişi vardır. ABŞ-la müxtəlif sferalarda əməkdaşlığı real ehtiyaclar üzərində qurulmuşdur. Avropanın bir neçə



dövlətinin enerji təhlükəsizliyində Azərbaycan ciddi rol oynayır. Avropalı rəsmilər açıq bəyan edirlər ki, Bakı enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi üzvi surətdə birləşdirən layihələrin təşəbbüskarı və həyata keçirənidir. Son illər bu istiqamətdə əməkdaşlıq yeni səviyyəyə yüksəlmişdir. İndi Azərbaycan Avropanın "yaşıl iqtisadiyyat"ının formalaşdırılmasında iştirak edir.

Bunlarla yanaşı, Azərbaycan Rusiya ilə əməkdaşlığı real müstəvidə qurur və inkişaf etdirir. Bura müxtəlif sferalar daxildir. Nəticədə Qərbin konfiqurasiyasına qarşı olmayan yeni geosiyasi güc formalaşır ki, orada Rusiya ilə yanaşı, Azərbaycan və Türkiyə də vardır. Bu geosiyasi konfiqurasiyaların bir-biri ilə ortaq mövqeyə gəlməsi əsas strateji məqsəddir. Avtomatik olaraq onların ünsiyyətini qura biləcək liderlərə və dövlətlərə ehtiyac yaranır. Məhz bu keyfiyyətdə Azərbaycanın şansı çoxdur. Azərbaycan – Rusiya – Türkiyə geosiyasi konfiqurasiyasının qlobal miqyasda perspektivi həm də bu imkanla bağlıdır. Burada məsələnin çox əhəmiyyətli və maraqlı bir cəhətinə yaxınlaşmış oluruq.

## Müstəqil dövlətin tarixi şansı

Son 300 ilin Avrasiyadakı geosiyasi tarixinə nəzər yetirsək, görərik ki, bu müddətdə Azərbaycan ağır bir mərhələ keçmişdir. Əvvəlcə, milyon kvadratkilometr ərazisi olan ölkəni iki yerə böldülər, sonra bölünmələrin sayı çoxaldı. Faktiki olaraq möhtəşəm və güclü bir imperiyanı parça-parça etdilər. Bunun azərbaycanlıların dövlətçilik psixologiyasına zərbəsi ağır oldu.

Sonra cəmi 23 ay demokratik müstəqil dövləti Azərbaycanın coğrafi-siyasi və mədəni məkanının kiçik bir hissəsində qura bildik (Şimali Azərbaycanda). Onu yaşamağa qoymadılar. Nəticədə SSRİ tərkibindəki 70 illik dövr.

Bu barədə o qədər yazılıb ki, bir daha üzərində dayanmayaq. Nəhayət, bütün bunlardan sonra müstəqilliyini bəyan edən Şimali Azərbaycana qarşı təcavüzlər davam etdi. Onda ümumiyyətlə, dövlətçiliyi itirmək təhlükəsi yarandı. Faktiki olaraq, bütöv Azərbaycanın kiçik bir hissəsi də müstəqillikdən məhrum olmağın astanasına gəlmişdi.

Xilaskar lider Azərbaycan Respublikasını müstəqil dövlət kimi qoruyub saxlaya bildi. Geosiyasi, siyasi, iqtisadi, mənəvi-əxlaqi və ideoloji baxımdam indiki Azərbaycan Respublikası "öz külündən" yenidən yarandı. Ulu öndər Heydər Əliyev buna nail oldu.

İndi təsəvvür edək: faktiki olaraq 30 il bundan əvvəl məhv olmağın həddinə gəlmiş bir müstəqil Qafqaz dövləti dünyanın iki nəhəng geosiyasi güc mərkəzini ortaq mövqeyə gətirə biləcək güclü dövlət səviyyəsinə yüksəlmişdir. Azərbaycan bir qədər əvvəl Rusiya – Türkiyə münasibətlərinin müsbətə istiqamətlənməsində ciddi rol oynamışdır. İndi isə Qərb – Rusiya və ya Qərb – qeyri-Qərb geosiyasi məkanı üçün birləşdirici rol yerinə yetirməkdədir. Bu tərəqqinin tarixi və geosiyasi əhəmiyyətini ola bilsin dərk etməyənlər və ya qəbul etməyənlər vardır. Lakin tarix faktları sevir və gerçəklik hər şeydən üstündür! Bakı bütün aspektlərdə və istiqamətlərdə birləşdirici faktordur.

Bura Qərb, Türk dünyası, Şərq, Uzaq Şərq, İran, Gürcüstan istiqamətləri eyni dərəcədə daxildir. Son zamanlar bura çox maraqlı bir istiqamət də daxil olmuşdur. O istiqamət, paradoksal olsa da, Ermənistanla bağlıdır.

Azərbaycan və Türkiyə ilə geosiyasi konfiqurasiya Rusiyaya da Ermənistan və Gürcüstanla olan soyuqlaşmanı müsbət məcraya yönəltməyə imkan verəcək. Bunun təbii səbəbi Rusiyanın bölgə ilə qonşu olmasıdır. Hazırkı geosiyasi şərtlər daxilində qonşuların uzun müddət düşmən olması mümkün deyildir, deməli, haradasa ortaq mövqe yaranmalıdır. Bu mövqeni yarada biləcək yeganə dövlət isə Azərbaycandır. Səbəb?

Çünki vurğulanan bu üç ölkə üçün son yüz illər ən yaxın dövlət Azərbaycandır. Tarixin ironiyasıdır və ya onların bəxtinin gətirməsidirmi – fərqi yoxdur, bir zamanlar hər üçünün qəbul etmədiyi Azərbaycan indi onlara müdriklik dərsi keçir. Faktiki olaraq Rusiya, Ermənistan və Gürcüstan bir-biri ilə yola getmirlər. Rusiyanın hər iki Cənubi Qafqaz dövləti ilə problemi var. Gürcüstan da Rusiyanı ərazilərinin bir hissəsini işğal etməkdə ittiham edir. Ermənistan Moskvadan küsüb ki, niyə Azərbaycana qarşı hərbi güc işlətmədin. Gürcüstanla Ermənistan arasında zahirən normal görünən münasibətlərin "yeraltı riskləri" kifayət qədərdir.

Bütün bunların fonunda Azərbaycanın Rusiya, Gürcüstan və hazırda Ermənistanla heç bir problemi yoxdur. Rusiya strateji müttəfiqdir. Gürcüstan strateji tərəfdaşlıqdan strateji müttəfiqliyə yüksəlməkdə olan dost qonşu dövlətdir. Ermənistan da yavaş-yavaş Azərbaycanı qəbul etməli olan dövlət olduğunu anlamaqdadır. Yəni hər üç istiqamətdə Bakı birləşdirici və əməkdaşlıq yaradıcı rolundadır. Bunlara görə, Azərbaycanın Cənubi Qafqazda Türkiyə və Rusiya ilə birgə yeni geosiyasi konfiqurasiya yarada bilməsi tarixi sıçrayışdır. Azərbaycan dövlətçiliyinin möhtəşəm uğurudur.

Buradan növbəti aktual geosiyasi nəticə çıxır. Azərbaycan – Rusiya – Türkiyə geosiyasi konfiqurasiyası daha geniş geosiyasi məkanda əməkdaşlıq, təhlükəsizlik formulu üçün baza rolunu oynaya bilər. Bura Gürcüstan və İranla yanaşı, Cənubi Asiya və Yaxın Şərq ölkələri də daxil ola bilər. Yəni faktiki olaraq əsrlərdir davam edən böyük Şimal-Cənub qarşıdurmasına son qoyulur.

Bu çoxfunksiyalı və potensiallı geosiyasi konfiqurasiya, bütövlükdə, dünyanın yenidən nizamlanmasında aparıcı rol oynaya bilər. Azərbaycanın burada əhəmiyyətli rolu qonşu ölkələr siyasi miqyasından qonşu regionlar miqyasına və oradan da regionlararası miqyasa siyasi-diplomatik transformasiya ilə bağlıdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Sülh, yoxsa silahlanma?

(əvvəli 1-ci səhifədə)

Məlumatda deyilirdi: "Azərbaycan tərəfindən son aylarda ölkələrimiz arasında münasibətlərə xələl gətirən birtərəfli hərəkətlərin davam etməsi ilə əlaqədar (?) Fransa Azərbaycandakı səfirini məsləhətləşmələr üçün geri çağırmaq qərarına gəlib. Respublika prezidenti bu gün səfirimizi bununla bağlı qəbul edib. O, Azərbaycanın hərəkətlərindən təəssüflandiyini bildirib və Bakının niyyətlərinə aydınlıq gətirməsini (?) istəyib".

Məlumatın sonrakı hissəsi də Fransanın utanıb-qızarmadığından xəbər verir: "Fransa beynəlxalq hüquq normalarına və iki ölkənin ərazi bütövlüyünə hörmət etməklə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına tərəfdar olduğunu bir daha bəyan edir. Bu yanaşma həm iki ölkəyə, həm də bütün regiona fayda verəcək".

Fransanın, Hindistanın və Yunanıstanın Ermənsitanı silahlandırması məsələsi aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin toxunduğu məsələlərdən biri oldu. Dövlətimizin başçısı ABŞ-nin Prinston Universitetinin professoru, Diplomatiya Tarixi və Təcrübəsi Proqramının direktoru Maykl Reynoldsun sualına cavab olaraq bildirdi ki, bizim üçün təsəvvür etdiyiniz kimi, əsas narahatlıq Ermənistanda potensial və mövcud revanşist meyillərdir. Qeyd etdi ki, bizim narahat olmağa tam haqqımız var, çünki Ermənistan bizə qarşı təcavüz edib, ərazimizi işğal edib, bir milyon insanı öz evlərindən qovub, torpaqlarımızı talayıb və hər şeyi dağıdıb, ərazimizin 20 faizini yerlə-yeksan edib: "Beləliklə, Ermənistanda baş verənlərin hamısına çox ciddi yanaşmaq üçün tam haqqımız var. Ancaq biz onların daxili işlərinə və ya uzaqda yerləşən başqa ölkələrlə münasibətlərinə heç bir halda qarışmırıq. Biz heç vaxt heç bir ölkənin daxili işinə qarışmırıq və bunu bütün qonşularımız bilir. Amma bu, bizim milli təhlükəsizliyimizlə bağlı bir məsələdir. Biz Fransanın, Hindistanın və Yunanıstanın Ermənistanı bizə qarşı necə silahlandırdığını və bunu açıq, nümayişkaranə şəkildə etdiyini, sanki bizə nəyisə sübut etməyə çalışdığını görüb, sakit oturub gözləyə bilmərik. Biz, sadəcə, oturub gözləyə bilmərik və biz bu mövqeyi Ermənistan hökumətinə, indi Ermənistanın qayğısına qalmaq istəyənlərə açıq şəkildə bildiririk. Bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq. Bəziləri təhlükəli, bəziləri isə təhlükəli olmayan, amma bu o dərəcədə vacib deyil, həmin silahlar Ermənistana çatdırılır. Ona görə bir daha bu platformadan istifadə edərək Ermənistana mesajım budur ki, bunu etməyin..."

Hayastanı silahlandıran digər dövlət Hindistandır. Nyu-Dehlinin son illərdə bu istiqamətdə aktiv fəaliyyətə başlaması təəssüf doğurur. Narendra Modinin hakimiyyətdə olduğu 10 il ərzində dörd pillə irəliləyərək iqtisadiyyatına görə dünyanın beşinci ən iri ölkəsinə çevrilən, 2027-ci ilədək ABŞ və Çindən sonra dünyanın üçüncü ölkəsinə çevriləcəyi proqnozlaşdırılan Hindistan Azərbaycanla əməkdaşlıq üçün də, necə deyərlər, əl yeri qoyur. Hindistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Randhir Ceysval bugünlərdə keçirdiyi brifinqdə bildirib ki, Nyu-Dehlinin həm Ermənistanla, həm də Azərbaycanla çox yaxşı münasibətləri var. "Lakin bizim Hindistanın müdafiə ixracını stimullaşdırmaq siyasətimiz də var" – deməklə dolayısı ilə biznesin Hindistan üçün əsas məsələlərdən biri olduğunu vurğulayıb.

Yunanıstan isə Azərbaycan–Türkiyə münasibətlərinin yeni inkişaf mərhələsinə qalxması, o cümlədən Bakının Şimali Kiprlə əlaqələri daha da sıxlaşdırması səbəbindən ölkəmizin əleyhinə addımlar atır. Yunan əsilli amerikalı konqresmen Dina Taytusun bugünlərdə Azərbaycana "sanksiya tətbiqi" ilə bağlı layihə hazırlamasına da bu çərçivədən yanaşmaq doğru olardı.

Ancaq Prezident İlham Əliyevin "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda dediyi kimi, Ermənistana nə qədər silah göndərilsə də, onların bizə qarşı heç bir şansı yoxdur. İkinci Qarabağ müharibəsi də bunu nümayiş etdirdi. Cəmi 44 gün adi insanların, sadəcə, gəzintiyə çıxa bilmədiyi dağlara çıxdıq və biz bunu yüngül silahlarla etdik, onların ordusunu tamamilə məhv etdik. Zənnimizcə, İrəvanda rahat kürsülərdə əyləşənlər həmin günləri yaddan çıxarmamalıdırlar.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Hazırda Ermənistanın silahlandırılması prosesi gedir. Fransa, Hindistan və Yunanıstanın Hayastana silah verməsi bölgədə təhlükəsizlik təhdidlərini bir qədər də artırır. Azərbaycan buna hələ ki, siyasi-diplomatik müstəvidə cavab verir. Ancaq biz də özümüzə təhdid hiss etdikdə dərhal hərəkətə keçəcəyik. Yaranacaq vəziyyətə görə məsuliyyət isə İrəvanla yanaşı, onu silahlandıran ölkələrin də üzərinə düşəcək. Bu səbəbdən Ermənistanı silahlandıran dövlətlər düşünməlidirlər ki, İrəvanı çox pis vəziyyətə sala bilərlər.

Azərbaycan bu gün güclü hərbi potensiala malikdir. Ermənistana verilən silahlar isə bölgədəki qüvvələr balansını dəyişmək iqtidarında deyil. Buna baxmayaraq biz 30 ilə yaxın torpaqlarımızı işğal altında saxlamış ölkənin silahlandırılmasına biganə qala bilmərik.

Vətən müharibəsində Azərbaycanın gücünü, qüdrətini, xalqımızın iradəsini və hərbçilərimizin peşəkarlığını bütün dünya gördü. Ona görə də Ermənistanın silahlandırılması, ona hərbi-siyasi dəstəyin verilməsi yalnız revanşizm iştahını artırır. Lakin reallıqda nəyəsə nail olmaq mümkün olmayacaq. Digər tərəfdən bu addım Cənubi Qafqazda təhlükəli tendensiya formalaşdırır. Rusiya–Ukrayna müharibəsi fonunda Cənubi Qafqazda yeni cəbhə açmaq, yeni münaqişə ocaqları yaratmaq və bununla beynəlxalq nizamı pozmaq, əlbəttə, yalnız məkrli qüvvələrin işidir. Həmçinin, bölgədəki yeni reallıqları qəbul etməyən güc mərkəzlərinin fəaliyyətinin tərkib hissəsidir.

Bu gün bölgəmizdə və qlobal miqyasda müharibələr, silahlı münaqişələr olsa da, Azərbaycan öz təhlükəsizliyini təmin edən dövlət kimi geniş coğrafiyada sabitliyin yaranması üçün əlindən gələni edir. Bakı bölgənin, necə deyərlər, sabitlik adasına çevrilməsində maraqlıdır. Lakin Ermənistanın destruktiv yanaşmaları və onun arxasnda olan qüvvələrin bu cür "həmlələri" sabitlik üçün böyük təhlükələr yaratmaqdadır.

# "Okampo kartı", qondarma soyqırımı və ermənilərə zərər

(əvvəli 1-ci səhifədə)

Paşinyan iqtidarının xaricdəki erməni lobbisi ilə əlaqəsi kəsilmiş durumdadır. Daha doğrusu, tərəflər arasında müştərək fəaliyyət elementləri bir o qədər nəzərə çarpmır. Diaspor müəyyən mənada keçmişin qalığı kimi çıxış edir, erməni iqtidarı isə belə demək mümkünsə, yenilikçidir. Əlbəttə, demək olmaz ki, Paşinyan və komandasının yenilikçiliyində avantürizm elementləri istisnadır. Ancaq birincilər məsələni daha dramatik qoyurlar və müqayisəli yanaşsaq, erməni iqtidarına nisbətdə reallıqdan daha uzaqdırlar. Uzaqlığın, bütövlükdə, Ermənistana ziyan vurması da var. Məsələn, 2020-ci ilin iyul hadisələri və 44 günlük müharibə zamanı erməni diasporunun kütləvi isterikasını yada salaq. Səs-küy, aqressiya, müzakirələr, qınaqlar baş alıb getdi, amma nəticə olmadı. İndi də durum aşağı-yuxarı eynidir. Amma yenidən bildirək ki, Azərbaycana qarşı beynəlxalq miqyasdakı istənilən əks davranışın Bakı – İrəvan münasibətlərinin nizamlamasına mənfi təsir yükü aktualdır. Yəni, bütün hallarda durumdan zərərli çıxacaq tərəf Ermənistandır. Ötən müddətdə baş verənlər də fikrimizin təsdiqidir. Deməli, Okamponun hazırkı canfəşanlığına ehtiyac yoxdur.

Qeyd edək ki, çox yaxın keçmişdə Ermənistan Azərbaycanla danışıqlar prosesini saxta "erməni soyqırımı" iddiası ilə pozmağa çalışıb və yenə ön planda Okampo olub. O, ötən ilin avqustunda "Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı saxta və sifarişli hesabat hazırlamışdı. O zaman Okamponu erməni əsilli amerikalı pornoulduz Kim Kardaşyan və amerikalı klinik professor Erik İsraelyan gündəmə gətirmişdi. Birincinin hazırladığı sənəd Qərb nəşrlərində geniş yayılmışdı. Hətta, "Vaşinqton post" kimi hesabatın üzərində xüsusi dayanmış media orqanları da meydana atılmışdılar.

Əlqərəz, Okampo həmin vaxt təfəkkürünün mücərrəd guşəsində bəslədiyi "keyfiyyətlərini" işə salaraq bildirmiş və xəbərdarlıq etmişdi ki, Azərbaycan, guya, Qarabağ ermənilərinin soyqırımına hazırlaşır. Karyerası ərzində qalmaqallarla yadda qalmış Luis Morenonun hazırladığı saxta sənədə istinad edən "Vaşinqton post" BMT-nin Təhlükəsizlik Şurasına müraciətin ünvanlanmasını və "erməni soyqırımı" məsələsinin beynəlxalq platformalarda müzakirə mövzusuna çevirməyin zəruriliyini açıqlamışdı. ABŞ nəşri, həmçinin Okamponun beynəlxalq konvensiyalarda soyqırımının digər məsələlərlə yanaşı, "yaşayış şəraitinin qəsdən dəyişdirilməsi" kimi təzahürünün mövcudluğu tezisinə söykənərək, "soyqırımının həyata keçirildiyini güman etmək üçün ciddi əsaslar var" deyə "həyəcan təbili" çalmışdı. Qəzetin "aclıq soyqırımının görünməz silahıdır. Təcili kəskin dəyişikliklər edilməsə, bu erməni qrupu yaxın həftələrdə məhv ediləcək" sayaq fikirlərin yer aldığı məqaləsində Qarabağ münaqişəsinin tarixindən qısa şəkildə bəhs edilməklə bərabər, Ermənistanın Laçın – Xankəndi yolunun üzərində qurduğumuz Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsinə yaxın zonada hazırladığı "tır şousu"na da yer verilmişdi.

Yeri gəlmişkən, Luis Moreno Okampo həyata keçirdiyi cəfəng işə ictimai məzmun qazandırmaq cəhdi ilə K.Kardaşyanı və E.İsraelyanı "Qarabağ xalqının" səsini ABŞ Dövlət katibi Antoni Blinkenə çatdırmağa çağırmışdı. O bildirmişdi ki, Blinken vəziyyəti dəyişdirə və bölgə ermənilərinin soyqırımını dayandıra bilən insanlardandır.

Argentinalı vəkilin belə bir "dəst-xətt" seçməsi Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarının ölkə rəhbərliyini şantaj etmək cəhdidir. Belə çıxırdı ki, əgər qaldırılan məsələ reallaşmasa, Blinken soyqırımın gerçəkləşməsinə göz yuman şəxsə çevriləcək. Əslində, eyni "yol" bu gün üçün də aktualdır. Bildirdiyimiz kimi, Morenonun hazırkı aktivliyi "soyqırımı" mövzusunu əldə bayraq edərək sülh prosesinə maneçilik törətmək istəyidir.

Sırf Okampoya gəldikdə isə o, pul üçün hər cür vicdansızlığa hazırdır. Dünyanın müxtəlif media orqanları onun karyerasındakı qaranlıq məqamlara kifayət qədər çox toxunublar. Bu baxımdan ilk növbədə 2017-ci ildə Fransanın rəqəmsal "Mediapart" nəşri naməlum mənbələrdən Morenonun bütün elektron poçt yazışmalarının surətini əldə etməyə müvəffəq olmasını vurğulaya bilərik. Almaniyanın "Der Spiegel" nəşri isə bu materiallar əsasında müəyyənləşdirmişdi ki, ekspert 2003-cü ildən bəri Argentinada vergi vermir.

Məsələ ondadır ki, alman nəşri Moreno Okamponun ofşorlarda hesab və kampaniyalarının mövcudluğunu da üzə çıxarmışdı. Vəkilin özü həmin qeyri-leqal zonalarda "işlədiyini" etiraf etmək məcburiyyətində qalmış və demişdi ki, Argentinada yaşamadığı üçün vergi ödəmir.

Elə sözügedən tədqiqat əsasında Avropanın jurnalist şəbəkəsi olan EIC xəbər vermişdi ki, Moreno Okamponun Hasan Tatanaki adlı müştərisi olub. Tatanaki liviyalı maqnat idi və ölkəsindəki hərbi cinayətlərdə ittiham edilirdi. Necə alındısa, Beynəlxalq Cinayət Məhkəməsi heç vaxt maqnatı qeyri-insani əməllərdə şübhəli bilmədi. Əlbəttə, bu, argentinalı hüquq dələduzunun 2012-ci ilədək çalışdığı qurumdakı baş prokuror "fəaliyyətinin" nəticəsi idi.

Qaranlıq hüquq fəaliyyəti ilə ad çıxarmış Luis Moreno Okamponun daha bir kriminal dələduzluq əməlini isə "Sunday Times" nəşri üzə çıxarmışdı. Nəşr müəyyənləşdirmişdi ki, Beynəlxalq Cinayət Məhkəməsindən çıxan elektron məktublarda Moreno məşhur kino ulduzu Ancelina Coli və çox güman, onun o zamankı həyat yoldaşı, tanınmış aktyor Bred Pittin köməyi ilə uqandalı hərbi rəhbər Cozef Konini nahara dəvət etmək, onun həbsinə nail olmaq və irəli düşmək istəmişdi.

Bəli, Okampo müxtəlif cinayətkar kriminal dairələrin, belə demək mümkünsə, haqlı çıxarılması, cəzadan uzaq tutulması üzrə dünyanın say-seçmə hüquq mütəxəssislərindəndir. O, saxta hesabat məntiqinə baş vuraraq, Azərbaycanın Qarabağ ermənilərinə qarşı, guya, soyqırımı həyata keçirməsi ilə bağlı iddianın beynəlxalq hüquq müstəvisinə özünə yer tapmasına çalışır. Əlbəttə, istəyinə çatmağı bacarmayacağı tam aydındır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

28 aprel akademik Zərifə xanım Əliyevanın doğum günüdür

# Milli qadın kimliyinin parlaq örnəyi



**“O, xəstəxanada yatanda arzu edirdim ki, heç olmasa ad gününə kimi həyatda qalsın. Amma tale belə gətirdi ki, o, apreldə dünyaya gəldi, apreldə də dünyadan getdi”. Bu sözləri ulu öndər Heydər Əliyev ömür-gün yoldaşı Zərifə xanımın anım mərasimində demişdi. Artıq Zərifə xanımın anadan olmasının 101-ci ildönümünü qeyd edirik. Onun barəsində çox yazılıb, filmlər çəkilib. Amma “sanki nəsə deyilməmiş qaldı” hissi adamı tərk etmir. Bu, belə də olmalıdır. Zərifə xanım tarixin o nadir qadınlarındandır ki, fərqli arxetipləri, fərqli qadınlıq obrazlarını özündə cəm etməyi bacarmışdı. Onun ən böyük nailiyyəti də elə bu idi. Bu həm qadın azadlığının, həm insan iradəsinin təntənəsidir. Qadınlığı və azad seçimi istehlakçı kultu işığında dərk edən gənclərin belə nümunələrə necə də ehtiyacı var! Bu gün də Zərifə xanım Əliyeva haqqında söhbət düşəndə gözümüz önündə işıqlı bir obraz – əsl Azərbaycan qadınının obrazı canlanır. Onun yaşadığı ömür başdan-başa bir nur mücəssəməsidir.**

Zərifə xanımın həyatda ən böyük arzusu insan sağlamlığını qorumaq, xəstələrinə işıq, sevinc bəxş etmək idi. O, həmkarları ilə birlikdə ağır faciəyə səbəb olan traxoma xəstəliyinə qarşı mübarizə aparırdı.Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, XXI əsrdə insan korluğunun əsas səbəbi traxoma xəstəliyi idi. Baxmayaraq ki, 2 milyona yaxın insan bu keçici xəstəlikdən əziyyət çəkir və 125 milyon insan yoluxma təhlükəsi altında yaşayır, ÜST bu infeksiyanı “unudulmuş xəstəliklər” siyahısına daxil edib. Yəni traxoma asanlıqla müalicə olunur və artıq epidemiyaya səbəb ola bilməz. İndi isə qayıdaq bu infeksiyanın effektiv müalicəsi olmadığı, kütləvi korluğa rəvac verdiyi 60 il öncəyə: tibbi inkişafın ön cəbhəsində duran böyük pionerlərin dövrünə. Məhz, həmin nəhənglərdən, bu gün traxomanın “unudulma” səbəbkarlarından biri və birincisi Zərifə xanım Əliyevadır.

Zərifə xanımın elmi fəaliyyəti, yazdığı monoqrafiyalar, əsərlər barədə çox danışmaq olar. Amma bundan daha mühüm məqamlar var. 60-cı illər iki qütbün – kommunist Şərqin və kapitalist Qərbin qarşıdurması ilə səciyyəvi idi. Birinci insan individuallığını və milli kimliyi inkar edərək, hər şeyi partiyaya qurban verirdi, ikincisi isə insanlara xidmət kimi müqəddəs bir amalı karyerizm və mənfəətpərəstliyin kölgəsində saxlayırdı. Bir sözlə, o zaman böyük alim olmaq, ya totalitar rejimin möhkəmlənməsinə, ya da şəxsi varlanmaya xidmət etmək anlamına gəlirdi. Üçüncü yolu tutmaq nəinki kiminsə ağlına gəlirdi, heç alternativ kimi mövcud da deyildi. Belə bir şəraitdə Zərifə xanım milli oftalmologiyanın əsasını qoyur. Azərbaycanlı kimliyinin kommunist internasionalizmi fonunda sönməsinə imkan vermir. O, elmi fəaliyyətlə yanaşı milli kadrların yetişdirilməsinə, habelə elmi tədbirlərin Azərbaycanda keçirilməsinə böyük önəm verirdi.

Zərifə xanımın tərcümeyi-halında oxuduğumuz sətirləri məhz bu rakursdan dəyərləndirmək gərəkdir. 1950-ci illərdə traxoma Azərbaycanda tüğyan edərkən, o, həmkarları ilə birlikdə, yoluxmadan qorxmayaraq, ölkəmizin bölgələrinə səfər edir, insanların müalicəsi ilə məşğul olurdu. Nəticədə traxoma Azərbaycanda həyat üçün təhlükəli hesab edilən xəstəliklər sırasından çıxarıldı. Zərifə Əliyeva sadə insanlara əlindən gələni etməyə çalışırdı. Məhz bu səbəbdəndir ki, onun ikinci mühüm işi kimya sənayesində çalışan fəhlələrin göz travmalarına həsr olunmuşdu.

1967-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti, 1983-cü ildə isə kafedra müdiri vəzifəsinə kimi yüksələn Zərifə xanım qarşısına alim yetişdirmək kimi böyük bir hədəf qoymuşdu. Xalq üçün alim olmaq azdır, alim yetişdirmək və alim yetişdirən bir sistem qurmaq gərəkdir.

1977-ci ildə məhz Zərifə xanımın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun Bakıda keçirilməsi Azərbaycanın elmi mərkəz kimi tanınmasında atılan düşünülmüş bir addım idi. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü və digər mühüm vəzifələrə seçilməsi Zərifə xanım üçün bir imtiyaz deyildi, ona öz missiyasını yerinə yetirmək üçün yeni imkanlar yaradırdı.

Adətən, alimlərin, xüsusilə qadın elm xadimlərinin həyatı çox da dolğun olmur. Onların şəxsi həyatları elmi fəaliyyətin kölgəsində qalır. Buna görə də onlar barədə yazmaq o qədər də çətin deyil. Kanadanın ilk nüvə fiziki Harriet Bruks ailə ilə elm arasında seçim etməli olduqda, ailəni seçir. Beləcə, elm böyük bir alimdən məhrum olur. Amerikalı bioloq Elis Evans südün pasterizə yolunu kəşf etsə də, insanlarla ünsiyyətdə o qədər maraqsız idi ki, ona “uzunçu” ayaması verilmişdi. İtaliyalı pedaqoq Mariya Montessori başqalarının övladlarına xoşbəxtlik bəxş etmək üçün öz doğma övladından imtina etmişdi... Belə misallar, həqiqətən də, müasir dünyada alim qadının acı taleyinə inamı artıra və gənc qızların özünü elmə həsr etməyinə mane ola bilər. Qızlarımızın şəxsi inkişafla yanaşı, qlobal meydana daxil olması, bəşəriyyət üçün faydalı şəxsiyyətə çevrilməsi üçün nümunələrə ehtiyac var. Gənc xanımlara ailəni də, işi də, dostluğu da, ictimai fəaliyyəti də bir araya gətirən uğurlu qadın obrazı gərəkdir. Şübhəsiz ki, belə obrazlardan biri məhz Zərifə xanım Əliyevadır.



Elmin və ictimai həyatın yüksəkliyinə ucalıb sadəliyini qorumaq çətin bir işdir. Qədim hikmət sahibləri deyərdilər ki, insan ruhu genişlənmək və əhatəli olmaqla yüksəlir. Zərifə xanımın həyatının xırda, bəzən gözdənqaçan nüansları, əslində, onun kimliyindən ən gözəl şəkildə xəbər verir. Tələbə yoldaşı danışırdı ki, müəllimi Ümmülnisə xanım ayağını sındıranda Zərifə xanım onun qayğısını elə çəkirdi, sanki öz doğma anasıdır. İş yoldaşları ilə elə səmimi münasibət yaratmışdı ki, illər sonra “biz onu həmişə sevəcəyik”, “o bizə insanlıq dərsi verirdi”, “hamımız onun tələbəsi sayıla bilərik”, “ən çətin anda ilk yardıma gələn o idi” deyə xatırlayırdılar. Rusiyanın məşhur oftalmoloqu akademik A.Nesterov Zərifə xanım Əliyeva haqqında yüksək fikirlər söyləyərək qeyd edirdi ki, “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada, o, bir nömrəli idi”. Akademik N.Puçkovskaya “xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi” deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu söyləmişdi.

Zərifə xanımın ən ağır şəraitdə zərərli istehsalatda tədqiqatlar aparması hamını təəccübləndirirdi. O, sənaye obyektlərində laboratoriyalar açırdı ki, işçilərin göz səhhətini nəzarətdə saxlaya bilsin. Şirvan (o zamankı Əlibayramlı) şəhərinin məktəblərində çalışırdı ki, uşaqların göz problemlərinin həlli yollarını tapsın. Bütün bunları SSRİ-də ən yüksək rütbələrdə çalışan bir insanın həyat yoldaşı edirdi.

Sovet rəhbərliyinin bir çox nümayəndələrindən fərqli olaraq, bu ailəni imtiyazlar deyil, məhz xalqa xidmət maraqlandırırdı. Ola bilsin ki, məhz, ziyanlı sənaye obyektlərində uzun illər işləməsi, onun gələcəkdə ciddi xəstəliyinə səbəb olmuşdu. Fədakar insan hər sahədə fədakar olmağı bacarır. Ona görə də, dostluqda və işində olduğu kimi, ailəsində də Zərifə xanım xüsusi seçilirdi.

Əliyevlər ailəsinin xeyir-bərəkət simvolu olan, azərbaycanlı qadınına, analara məxsus müqəddəs duyğuları şəxsiyyətində, simasında formalaşdıran Zərifə xanım həyat yoldaşı, dünya şöhrətli dövlət xadimi Heydər Əliyev kimi müdrik, dahi bir insana, sözün həqiqi mənasında, əsl dost, yaxın silahdaş və mənəvi dayaq olmuşdu. Ulu öndərin Zərifə xanım barəsindəki bir sözü burada yerinə düşür: “O, mənə görə canını da verməyə hazır idi”. Zərifə xanımın gərgin iş qrafiki heç zaman həyat yoldaşının və övladlarının qayğısını çəkməsinə mane olmurdu. Heydər Əliyevin pəhrizi, qidalanması, sağlamlığı ilə birbaşa özü məşğul olurdu. Ulu öndər deyirdi: “Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam... Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üstünə düşüb və o, bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib”.

Zərifə xanım yüksək vəzifədə çalışan həyat yoldaşını məişət qayğılarından azad etmişdi, ailədə ona tam rahat və doğma bir mühit yaratmışdı. Bu isti ailə mühitini formalaşdıran xanım paralel olaraq elmin zirvələrini fəth edir. Zərifə xanım doktorluq dissertasiyasını dünyanın ən öncül elmi mərkəzlərindən olan Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müdafiə edir. Averbax mükafatına layiq görülən ilk qadın da məhz Zərifə xanım oldu. Bu mükafat dünya oftalmologiyasında ən mötəbər mükafat sayılır və SSRİ Elmlər Akademiyası tərəfindən dünyanın ən görkəmli oftalmoloqlarına verilirdi. Alimlər cameəsi etiraf edirdi ki, Zərifə xanımın həkimlərin uzaq durduğu zərərli obyektlərə can atıb birbaşa fəhlələrin səhhəti ilə məşğul olması fədakarlıqdan başqa bir şey deyil. Ona görə yüksək elmi tribunalarda çıxış edərkən, dünya oftalmoloqları onu diqqətlə dinləyirdi. Bütün bunlar Azərbaycanın nailiyyətləri idi.

Zərifə xanım qayğıkeş insan, gözəl qadın, böyük alim, öz işini sevən peşəkar həkim olması ilə yanaşı, analıq missiyasının da öhdəsindən yüksək səviyyədə gəlirdi. Zərif bir ana necə böyük bir qüdrət daşıya bilər, dünyaya necə böyük insanlar bəxş edə bilər, xalqın taleyində necə misilsiz iz qoya bilər. Analıq, doğrudan da, təbiətin ən böyük möcüzəsidir! Analar həyatda ən çətin olan iki şeyə qadirdirlər: həm böyük tale, həm də böyük xoşbəxtlik bəxş edə bilmək qüdrətinə. Bu cəhətdən də Zərifə xanım unikal bir qadın idi.

Azərbaycanın müzəffər Ali Baş Komandanı, ölkəmizi dünyanın strateji əhəmiyyətli dövlətinə çevirən, milli maraqları hər şeydən üstün tutan, qətiyyətli və əzmkar lider olan İlham Əliyev məhz belə bir ananın tərbiyəsini almalı idi. Təsadüfi deyil ki, Ulu öndər öz xatirələrində Zərifə xanımın məhz analıq cəhətini xüsusi vurğulayırdı: “Mənim üçün o, birinci növbədə böyük insan idi. Sədaqətli həyat yoldaşı. Çox mehriban, sədaqətli ana. Mənim ailəmi, uşaqlarımı, nəvələrimi yaşadan və böyüdən fədakar bir insan”.

Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: “Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur”. Böyük Zəfərdən sonra Ali Baş Komandanın anasının məzarını ziyarət etməsi, bu zəfərdə ana tərbiyəsinin payından xəbər verirdi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qayınanasının son aylarını xatırlayarkən çox maraqlı bir məqama toxunur: “Ölümündən bir ay öncə mənə dedi ki, vəziyyətim çox pisdi. Amma bunu hamıdan gizlədirdi. İndi başa düşürük ki, həmin xəstəliyin ağrılarına dözmək və gizlətmək mümkün deyildi. Amma Zərifə xanım bunu da bacarırdı”.

Ürəyində və əməllərində işıqlı amalları, nəcib duyğuları yaşadan, özündən sonra zəngin elmi irs, o cümlədən gözəl ailə nümunəsi qoyub gedən Zərifə xanım Əliyeva əfsanəyə çevrilərək xalqımızın qəlbində və yaddaşında yaşamaqda davam edir.

***Gülnarə RZAYEVA,***
***Azərbaycan Dövlət İqtisad Universiteti Ümumi Fənlərin Tədrisinin Təşkili Departamentinin direktoru, dosent***

# Baş prokuror Ağdaş rayonunda vətəndaşları qəbul edib



**Aprelin 26-da Baş prokuror Kamran Əliyev Ağdaş Rayon Prokurorluğunun inzibati binasında Ağdaş, Yevlax, Ucar, Zərdab rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 44 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Hərbi Prokurorluqda geniş kollegiya iclası



**2023-cü ildə Hərbi Prokurorluq orqanlarında qeydə alınmış qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və özünü öldürmə həddinə çatdırma cinayətləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin vəziyyətinin, cinayət hadisələrinin baş verməsinin səbəb və şəraitinin, həmin cinayətlər üzrə istintaq təcrübəsi və məhkəmə nəticələrinin ümumiləşdirilməsinin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin hərtərəfli bilik və bacarığı, qətiyyəti, yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının bütün istiqamətlər üzrə yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. O, həmçinin vurğulayıb ki, Prezidentin ölkəyə rəhbərlik etdiyi 20 ildə əldə edilən misli görünməmiş uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın zəngin fəaliyyəti də mühüm əhəmiyyət kəsb etməkdədir.

Bundan sonra, məruzəçilər - İstintaq İdarəsinin rəisi, ədliyyə polkovniki Bəhruz Əhmədov və Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi, ədliyyə polkovniki Hümmət Məmmədov kollegiya iclasının həsr olunduğu məsələlər barədə çıxış edərək, bununla bağlı hesabat dövründə görülmüş işlərdən danışıb. Həmin cinayətlərin qarşısının alınması ilə əlaqədar hərbi prokurorluq orqanlarının və aidiyyəti qurumların qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görülməli olan tədbirlər barədə məlumat veriblər. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, 2023-cü ilin birinci rübü ilə müqayisədə 2024-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 50 faiz, özünü öldürmə hadisələri 40 faiz azalıb, qəsdən adam öldürməyə cəhd cinayətləri isə ümumiyyətlə qeydə alınmayıb.

Kollegiya iclasına yekun vuran Hərbi prokuror diqqətə çatdırıb ki, cinayət hadisələrinin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində Hərbi Prokurorluğun aidiyyəti qurumlarla birgə fəaliyyəti bundan sonra da uğurla davam etdiriləcək.

***XQ***

# Türkiyə–Rusiya Birgə Monitorinq Mərkəzi bağlandı



**Aprelin 26-da Ağdam rayonu ərazisində yerləşən Türkiyə–Rusiya Birgə Monitorinq Mərkəzinin təntənəli bağlanış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının Qərargah rəisi general-polkovnik Levent Ergün və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini, general-polkovnik Sergey İstrakov çıxış ediblər.

2021-ci ilin yanvar ayının 30-dan regionda sülhün və sabitliyin rifahı naminə vicdanlı və cəsarətli xidmətlərinə görə türkiyəli və rusiyalı hərbi qulluqçulara minnətdarlıq ifadə olunub, onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

Həmçinin qeyd edilib ki, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin də iki ölkənin ali rəhbərliyi arasında əldə olunan razılığa əsasən fəaliyyətini vaxtından əvvəl dayandıraraq ölkə ərazisindən tam çıxarılması prosesinə başlanılıb.

Mərasimdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının və Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin iştirakı ilə bədii proqram təqdim edilib.

***XQ***

# Çin bazarları Azərbaycan mallarına meydan açır

## *Asiya nəhəngi respublikamızın 4-cü böyük ticarət tərəfdaşıdır*

**Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.**



Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Qeyd edək ki, son illərdə respublikamızın qeyri-neft ixracı sahəsi coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin çoxalması ilə diqqət çəkib. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və “Made in Azerbaijan” brendinin xaricdə tanıdılmasına dəstək tədbirlərİ də ixracın artımına müsbət təsir göstərib.

Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının və mətbəxinin təqdim olunduğu 11 ticarət evi fəaliyyət göstərir. Həmin ölkələr sırasında Çin xüsusi yer tutur. Artıq bir neçə gündür ki, respublikamızın bu ölkədə sayca 5-ci ticarət evi fəaliyyət göstərir. Ticarət evlərindən başqa, Azərbaycanın Çinin Şanxay, Harbin, Cinan və Uhan şəhərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 şərab evi də istehlakçılara xidmət edir. Ticarət və şərab evləri “Made in Azerbaijan” brendi ilə istehsal olunan ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların Çin bazarında daha çox tanıdılmasını, eləcə də, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsini şərtləndirir.

Çinin Sıçuan vilayətinin paytaxtı olan Çendu şəhərində fəaliyyətə başlayan yeni “Azərbaycan Ticarət Evi”nin açılışı mərasimində bildirilib ki, ticarət evi respublikamızda dadı və keyfiyyəti ilə seçilən məhsulların bu ölkədə təşviqi ilə yanaşı, xalqlar arasında mədəni əlaqələrin dərinləşməsinə də töhfə verəcək.

Xatırladaq ki, yeni “Azərbaycan Ticarət Evi” Çendu şəhərinin Çinbaycian rayonundakı Siçuan Azad Ticarət Zonasında yerləşir. Çendu şəhərindən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi üzərindən Avropaya göndərilən yük qatarları məhz bu azad zonadakı beynəlxalq dəmir yolu limanından yola salınır. Liman ərazisindəki ölkə pavilyonları şəhərciyində yerləşən “Azərbaycan Ticarət Evi”nin sahəsi təxminən 600 kvadratmetrdir. Hazırda bu şəhərcikdə Türkiyə, Yunanıstan, Almaniya, İtaliya, İspaniya, Niderland, Belçika və Yeni Zelandiya da daxil olmaqla 34 ölkənin pavilyonu fəaliyyət göstərir. “Azərbaycan Ticarət Evi” şəhərcikdəki ən böyük ticarət evlərindən biridir.

Ticarət evində Azərbaycanın zəngin mədəni irsinə, turizm potensialına, iqtisadi imkanlarına, eləcə də, sərmayə mühitinə aid materiallar nümayiş olunur. İqtisadiyyat Nazirliyinin dəstəyi, ölkəmizin Çindəki ticarət nümayəndəliyinin təşkilatçılığı ilə yaradılan ticarət evində “Made in Azerbaijan” brendli məhsullar çinli istehlakçılara təqdim olunur. Bura əsasən çaylar, meyvə şirələri, şərablar, konservlər, mürəbbələr, qənnadı məmulatları və s. daxildir.

Azərbaycanın Çinlə əməkdaşlığında bir məqamı da xatırlatmaq istərdik. Belə ki, bu ölkənin innovasiyayönümlü investisiya imkanları respublikamız üçün mühüm önəm daşıyır. Başqa sözlə, bu, Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiyaya sadiqliyini, eynin zamanda, Şərqlə Qərbin kəsişməsində strateji mövqeyə malik ölkəmizin çinli sərmayədarları cəlb edə biləcək geniş imkanlara malik olduğunu təsdiqləyir.

Beləliklə, iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari–iqtisadi əlaqələrin inkişafını şərtləndirir. Təbii ki, belə bir şəraitin davamlı şəkildə formalaşması Azərbaycan–Çin arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlərin, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlərin uğurla gerçəkləşdirilməsi ilə sıx bağlıdır .

Yeri gəlmişkən, iki ölkə arasında münasibətlərin yeni mərhələyə daxil olmasında xüsusi yer tutan iqtisadi əlaqələrinin genişləndirilməsi, bu sahədəki problemlərin həlli məqsədilə yaradılan Hökumətlərarası İqtisadi Komissiya hər zaman səmərəli fəaliyyət göstərib. Adıçəkilən komissiyanın ilk iclası 2009-cu ilin mayında keçirilib. Bundan əlavə, 2012-ci il iyununda Pekin şəhərində Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olub.

Ölkəmizin “Bir kəmər, bir yol” layihəsinə verdiyi dəyər 2017-ci ilin oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı ilə təsdiqlənib. Çin hökuməti bu polad magistralın istifadəyə verilməsini, marşrutun tikintisində respublikamızın rolunu, eləcə də “Bir kəmər, bir yol” layihəsinə verdiyi dəstəyi daim yüksək qiymətləndirib.

Onu da qeyd edək ki, son illərdə Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika nəzərə çarpır. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda respublikamızın ticarət dövriyyəsində Çin əsas ölkələr siyahısında 4-cü yerdə qərarlaşır. Çin şirkətlərinin Azərbaycanda fəaliyyəti sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələri əhatə edir. Dost ölkənin 1995-ci ildən indiyədək respublikamıza yatırdığı birbaşa investisiyanın həcmi isə 900 milyon dolları keçir.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin dinamik inkişafından bəhs edərkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanla birgə əməkdaşlıq, hər iki ölkənin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının səmərəli fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) ilə gerçəkləşdirilən layihələr, respublikamızın Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə fəal şəkildə qoşulması, eləcə də Şərq-Qərb, Orta Dəhliz layihələri çərçivəsində işgüzar münasibətlər dövlətlərimiz arasında yüksək iqtisadi göstəricilərin əldə olunmasını şərtləndirib.

Azərbaycan dost ölkə ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində də sıx əməkdaşlıq qurub. Hər iki dövlət tərəfindən irəli sürülən “Bir kəmər, bir yol” layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb. Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilən beynəlxalq forumda da bu məsələyə toxunaraq deyib: “Nəqliyyat məsələsi daha böyük önəmə malikdir. Bu gün Transxəzər Nəqliyyat Dəhlizinə heç vaxt olmadığı qədər ehtiyac var. Biz Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını görürük. Yeri gəlmişkən, ötən ay Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi”.

Onu da xatırladaq ki, dövlətimizin başçısının təsdiq etdiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən, işğaldan azad olunan ərazilərdə “Yaşıl enerji” zonasının yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində iki ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və Azərbaycan tərəfindən bu sahəyə də çinli investorlar dəvət edilib.

***Vaqif BAYRAMOV***
***XQ***

## Macarıstan ölkəmizə 1 milyard dollar sərmayə yatırıb

**Azərbaycanda Macarıstanın 18 şirkəti fəaliyyət göstərir. Bu şirkətlərin fəaliyyəti ticarət, xidmət və nəqliyyat sahələri ilə bağlıdır.**



Bunu iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Bakıda keçirilən Azərbaycan–Macarıstan Hökumətlərarası Komissiyasının 10-cu iclasında deyib.

Onun sözlərinə görə, Macarıstan şirkətlərinin Azərbaycan iqtisadiyyatına sərmayələri 1 milyard dolları ötüb ki, investisiyalar daha çox neft-qaz sektoruna yönəlib.

## Qarabağda “yaşıl enerji” zonası genişlənir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və Bakı Avrasiya Universitetinin birgə təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yaşıl inkişaf imkanları” mövzusunda respublika konfransı keçirilib.**



Konfransda İİTKM-in icraçı direktorunun müavini, iqtisad elmləri doktoru Ramil Hüseyn “yaşıl iqtisadiyyat”, “yaşıl enerji”, işğaldan azad edilmiş ərazilərin “yaşıl inkişaf” imkanları və digər istiqamətlər üzrə çıxış edib.

İİTKM-in şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov ölkəmizdə alternativ enerji mənbələrinə investisiya qoyuluşundan, işğaldan azad edilmiş ərazilərdə bu sahədə görülmüş işlərdən danışıb, yaxın gələcəkdə neft ölkəsi kimi tanınan Azərbaycanın dünyaya “yaşıl enerji” ixracatçısı kimi çıxacağını vurğulayıb.

Konfransın digər çıxışçıları cəmiyyətdə “yaşıl münasibətlər”in və “yaşıl düşüncə”nin formalaşması, eləcə də işğaldan azad edilmiş ərazilərdə “yaşıl inkişaf” imkanları haqqında öz fikirlərini bölüşüb, bunun gələcək nəsillərin qarşısında məsuliyyət hissinin formalaşdırılması istiqamətində mühüm addım olduğunu qeyd ediblər.

## Kredit qoyuluşu 23 faiz artıb

**2024-ci il aprel ayının 1-nə ölkə iqtisadiyyatına kredit qoyuluşları 25 milyard 442 milyon manat (cari ilin əvvəli ilə müqayisədə 6,1 faiz çox) təşkil edib.**



Mərkəzi Bankın bununla bağlı məlumatına görə, 2023-cü ilin aprel ayının 1-i ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşları 23,1 faiz və ya 4 milyard 777 milyon manat artıb. Belə ki, ötən ilin aprel ayının 1-nə kredit qoyuluşlarının həcmi 20 milyard 664 milyon manat təşkil edib.

## 3 ayda 7 milyard kilovat-saat enerji

**Bu ilin yanvar–mart aylarında respublikamızda elektrik enerjisi istehsalı 7 milyard 129 milyon kilovat-saat, ixrac 360 milyon kilovat-saat, idxal 44 milyon kilovat-saat olub.**



Energetika naziri Pərviz Şahbazovun bununla bağlı paylaşımında daha sonra bildirilir ki, cari ilin I rübündə İES-lər üzrə 6 milyard 519 milyon kilovat-saat, su da daxil olmaqla bərpaolunan enerji mənbələrindən isə 241 milyon kilovat-saat artımla 610 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

***XQ***

# Kiçik və orta biznes qeyri-neft sektorunun inkişafına təkan verir

**Ölkə iqtisadiyyatının dinamik inkişafında mühüm rol oynayan özəl sektora, o cümlədən kiçik və orta biznes subyektlərinə dövlət dəstəyi getdikcə gücləndirilir. Bazar iqtisadiyyatı yolu ilə inamla irəliləyən ölkəmizdə uzun illərdir ki, əlverişli biznes və investisiya mühiti hökm sürür. İndi biznes fəaliyyətinə başlamaq istəyən şəxslər özünü daha inamlı və güvənli hiss edirlər. Bunun nəticəsidir ki, son illər sosial-iqtisadi həyatın bütün sahələrində sahibkarlıq subyektlərinin sayı getdikcə artır. Artıq iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmiş özəl sektor ümumi daxili məhsul istehsalında xüsusi pay sahibinə çevrilib.**



Son 5 ildə Azərbaycanda kiçik və orta biznes (KOB) subyektlərinin sayı 54 faiz artıb. İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun dediyinə görə, hazırda ölkənin qeyri-neft sektorunu əhatə edən layihələrin əksəriyyəti məhz sahibkarların səyləri və onların vəsaitləri hesabına reallaşdırılır.

Qurum rəhbəri 25 aprel – Sahibkarlar Gününə həsr olunmuş tədbirdə bildirib ki, bu müddətdə KOB-ların qeyri-neft-qaz sektoru üzrə əlavə dəyərdə payı 23,5 faizdən 27,2 faizə yüksəlib. Onun sözlərinə görə, son 5 ildə kiçik və orta biznes subyektlərinin yaratdığı əlavə dəyər 74 faizdən çox artaraq, təqribən, 17,2 milyard manat təşkil edib. KOB-ların işçilərinin sayında da müsbət dinamikanın müşahidə olunduğunu vurğulayan O. Məmmədov deyib ki, hesabat dövründə bu göstərici 31 faiz artaraq 370 min nəfəri keçib.

Bu ilin birinci rübündə KOBİA tərəfindən kiçik və orta biznes subyektlərinə 152 biznes-planın hazırlanmasında dəstək göstərilib. Qurum, həmçinin 800-dən çox KOB subyetinin və sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlərin biznes biliklərinin artırılmasına kömək edib. Bununla yanaşı, yanvar-mart aylarında KOB subyektləri üçün 75 təlim keçirilib, 208 sahibkara məsləhət xidməti göstərilib.

Son illər ölkədə KOBİA-nın təsis etdiyi “Startap” şəhadətnaməsinə də maraq xeyli artıb. Bu da təsadüfi deyil. Çünki bu sənəd KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına görə, 2024-cü ilin yanvar–mart aylarında 26 mikro və kiçik sahibkar “Startap” şəhadətnaməsi üçün quruma müraciət edib. Agentlikdən bildiriblər ki, Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “Startapın müəyyən olunması meyarları”na əsasən ekspertlər şurası tərəfindən hesabat dövründə 16 mikro və kiçik sahibkara belə şəhadətnamələrin verilməsi barədə qərar qəbul olunub. Şəhadətnamə almış sahibkarlıq subyektlərin 11-i hüquqi, 5-i fiziki şəxsdir. Onlardan da 15-i mikro, 1-i isə kiçik sahibkarlıq subyektidir. “Startap” şəhadətnaməsi almış layihələr təhsil, ictimai-iaşə, İKT, sənaye kimi sahələrdə innovativ həlləri nəzərdə tutan onlayn platformaların, mobil tətbiqlərin yaradılması, müxtəlif cihaz və qurğuların istehsalını nəzərdə tutur. Ümumilikdə, ölkə üzrə indiyədək 139 mikro və kiçik sahibkarlıq subyektinə “Startap” şəhadətnaməsi verilib.

Azərbaycanda keçiriləcək COP29 və “Yaşıl Dünya Naminə Həmrəylik ili” tədbirləri fonunda biznesin “yaşıl” transformasiyası mühüm əhəmiyyət kəsb edir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun dediyinə görə, 2024-cü il ərzində KOB-ların “yaşıl” iqtisadiyyatda rolunun artırılması məqsədlə yeni institusional təsisatın və təşviq mexanizmlərinin yaradılması üzrə təkliflər hazırlanacaq. “KOBİA, həmçinin Azərbaycanın biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyasının “Ekoloji, sosial və korporativ idarəetmə standartları” altqrupuna rəhbərlik edir. Sözügedən altqrup çərçivəsində fəaliyyətlər ətraf mühit məsələlərinin də geniş əhatə olunduğu Ətraf mühit, sosial və idarəetmə prinsiplərinin Azərbaycanda tətbiqinin təşviqini hədəfləyir”, – deyə O.Məmmədov əlavə edib.

Agentlik rəhbəri deyib ki, resurs baxımından səmərəli və qənaətli texnologiyaların tətbiqi, eləcə də “yaşıl” innovasiyaların biznes proseslərinə inteqrasiyası kiçik və orta biznes subyektlərinin xərclərinin optimallaşdırılmasına, məhsuldarlığının yüksəldilməsinə və rəqabət qabiliyyətinin artırılmasına böyük ölçüdə təsir göstərməklə yanaşı, istehsal prosesinin ətraf mühitin mühafizəsi standartlarına uyğunlaşdırılmasına, eləcə də “yaşıl” məhsulların istehsalı bizneslərin ixrac potensialının və maliyyə resurslarına çıxış imkanının artırılmasına xidmət edir.

Bir məqamı da qeyd edək ki, ölkəmizdə kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədilə KOB evləri yaradılır. Artıq Bakı, Xaçmaz və Yevlax şəhərlərində KOB evləri fəaliyyət göstərir. Bu yaxınlarda isə daha bir KOB evinin Gəncə şəhərində fəaliyyətə başlaması nəzərdə tutulur. Məlumat üçün bildiririk ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin struktur bölməsi olan KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin təqdim olunduğu vahid məkandır. Sahibkarlar bu məkana daha çox biznes fəaliyyəti üçün zəruri sənədlər, vergi və gömrük məsələləri, kommunal xidmətlər üçün müraciət ediblər. KOB evlərində, həmçinin biznes subyektlərinə investisiya təşviqi sənədləri də təqdim olunur. Qeyd edək ki, investisiya təşviqi sənədi hüquqi şəxslərə və fərdi sahibkarlara Azərbaycan Respublikasının Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. İnvestisiya təşviqi sənədini almış sahibkarlar 7 il müdətində mənfəət və gəlirin 50 faizinin vergisindən, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğuların idxalı üçün ƏDV-dən və gömrük rüsumundan azad edilir. Ötən müddətdə ölkəmizdə sahibkarların 588 layihəsinə investisiya təşviqi sənədi verilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Petelin "separatizm təəssübü" və Ermənistan illüziya burulğanında

## Fransız deputat sərsəmləmələrindən qalmır

**Hazırda Fransa ermənipərəstliyinin əsas simalarından biri olan ölkə parlamentinin Fransa – Ermənistan dostluq qrupunun rəhbəri Ann-Lorens Petel yenə sərsəmləyib. Onun "Tvitter" paylaşımında iki başlıca məqam var.**



Məlumdur ki, Ermənistan hakimiyyətinin, eləcə də onun xaricdəki havadarlarının anti-Azərbaycan təbliğatında mühüm yeri ölkəmizin qeyri-demokratik, avtoritar üsuli-idarəsinə malik məmləkət təqdimatı tutur. Bu fonda Ermənistanın, guya, demokratik olduğu qabardılır, Bakı-İrəvan münasibətləri baxımından birincinin ikinciyə hücumu ritorikası gündəmə gətirilir. Beləliklə, beynəlxalq ictimaiyyətin əsl həqiqətlərdən uzaq tutulması xətti götürülür. Çalışılır ki, xarici aləm Azərbaycana qarşı təzyiq yolunu tutsun. Bir sözlə, tam manipulyativ yanaşma həyata keçirilir. Yanaşmanın adı budur: demokratiyanı diktaturanın hücumundan qorumaq. İndi Ann-Lorens Petelin də sosial şəbəkə hesabında yazdıqlarına da məhz bu "məna yükü" hakim kəsilib.

Fransız xanım parlamentarinin üzərində dayandığı ikinci məsələ budur ki, ermənipərəst dairələr çox tez-tez Azərbaycan tərəfindən "Qarabağın erməni mədəni irsinin məhvi" məsələsini qaldırırlar. Əlbəttə, burada bilinmir ki, söhbət ölkəmizin hansı hərəkətindən gedir. Digər tərəfdən, Qarabağda olan xristian dini məbədləri ermənilərə məxsus deyil. Otuz ilə yaxın davam etmiş işğal dövründə bölgədəki qədim alban məbədləri erməniləşdirilib və hazırda Azərbaycan dövləti məhz bu tendensiyanın izlərini silir, həmin abidələri əvvəlki görkəminə gətirir. Yəni, tarixilik baxımından ölkəmizin gerçəkləşdirdiyində heç bir qüsur yoxdur və məsələ elmi cəhətdən də mübahisələndirilə bilməz.

***

"Qarabağın erməni mədəni irsinin dağıdılması" məsələsində ermənipərəstlərin apardıqları təbliğatdakı haqqında söz açacağımız növbəti motiv çox gülməlidir. Elə Ann-Lorens Petel də məhz gülünc məqamı qabardır. Sən demə, separatçı rejimin "milli assambleyası" adlanan qurumun binası erməni mədəni mirası imiş. Bir neçə ay əvvəldən Azərbaycanın binanı sökməsi xüsusunda hay-küy qaldırılmışdı. İndi isə həmin rejimin Xankəndidə yerləşən "hökumət binası"ndakı təmir işləri eyni mənfur prizmadan qiymətləndirilir. Yəni, həmin binanın üzərində olan qondarma rejimin gerbi sökülüb. Xanım Petelin də narahatlığının səbəbi budur.

Qeyd edək ki, bu ilin martından sabiq separatçı xunta rejiminin Xankəndi şəhərində 1994-cü ildə inşa etdiyi və 2009-cu ildə yenidənqurma işləri apardığı "parlament binası"nın Azərbaycan hökumətinin göstərişinə əsasən sökülməsinə başlanılıb. Üçmərtəbəli, sahəsi 1350 kvadratmetr olan tikilidə qondarma rejimin 33 "deputat"ı fəaliyyət göstərib. "Hökumət binası"na gəlincə, onunla bağlı Prezident İlham Əliyev martın 18-də xalqımıza Novruz bayramı münasibətilə Xankəndidən ünvanladığı təbrik nitqində məlumat vermişdi. Özü də müfəssəl şəkildə. Dövlətimizin başçısı bildirmişdi ki, Xankəndi sovet dövründə Azərbaycan büdcəsi hesabına, Azərbaycan memarları və inşaatçıları tərəfindən inşa edilib: "Bax, arxadakı bina Vilayət Partiya Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Həsən Məcidov idi. Onun yanındakı bina 1970-ci illərdə inşa edilmişdir, Vilayət İcraiyyə Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Nəsrullah Kəngərli idi"...

Göründüyü kimi, real faktlar var. Belə olan halda Petel və onun kimilərinin qaldırdıqları vay-şivənin heç bir əhəmiyyəti yoxdur. Ancaq burada qeyd ediləsi bir məqam da var. Hər şeydən əvvəl, Qarabağ Azərbaycanın torpağıdır. Ərazidəki heç bir mədəni irs nümunəsinə qəsb gerçəkləşdirilmir. Ancaq vurğuladıq ki, ermənilər otuz ilə yaxın müddətdə qəsb və vandallıq həyata keçiriblər. Nəinki Qarabağda, eyni zamanda, işğala məruz qoyduqları digər bölgələrimizdə. İkincisi, nə zamandan bir ölkənin ərazisindəki separatçı quruluşda rəmz kimi qiymətləndirilən binalar mədəni irs sayılır?

O da görünür ki, ermənipərəst dairələr üçün beynəlxalq hüquq prinsipləri heç nədir. Həmin prinsiplərə ən aşkar etinasızlığı məhz Fransanın ermənipərəstləri edirlər. Ölkə parlamentinin deputatı və Fransa – Ermənistan dostluq qrupunun sədri Ann-Lorens Petel bu baxımdan daha "irəli getməsi" ilə fərqlənir. Böyük ehtimalla onun yerli erməni lobbi və diaspor təşkilatlarından aldığı maliyyə vəsaitinin miqdarı o qədər çoxdur ki, hər cür cəfəngiyyatı dilə gətirməkdə, yazmaqda çətinlik çəkmir.

Yeri gəlmişkən, xanım Petel ötən ay İrəvana səfəri zamanı da cəfəng fikirləri ilə yadda qalmışdı. O, "Armenpress"ə müsahibəsində demişdi ki, Fransa Ermənistanın müdafiə qabiliyyətini və suverenliyini gücləndirməlidir. Guya, Parisin mövqeyi İrəvanın "təcavüzkar Azərbaycanla" münasibətlərini balanslaşdırmağa hesablanıb. Qızışdırıcı mövqe tutan xanım parlamentari müsahibəsində, həmçinin artıq mövcud olmayan Qarabağ münaqişəsinin həllindən, ölkəsinin bu istiqamətdəki fəaliyyətindən və digər məsələlərdən söz açaraq bildirmişdi ki, "Fransa Azərbaycanın Ermənistana qarşı təcavüzünü dayandırmağa, Bakını Qarabağ ermənilərinin geri qayıtmaları, onların təh-lükəsizliklərinin və rifah hallarının təminatı üçün müvafiq şərait yaratmağa çağırır".

Petel, eyni zamanda, Fransa Senatının Azərbaycanla bağlı qətnaməsindən söz açmış və vurğulamışdı ki, Qarabağ ermənilərinin geri qayıtma hüquqlarının təminatı, onların təhlükəsizliyi və rifahı naminə çağırış ruhuna malik sənəd Azərbaycanı öz silahlı qüvvələrini Ermənistan ərazisindən çıxarmağı tələb edir. Ən əsası isə o, qətnamədə Bakıya sanksiyaların tətbiqi çağırışının yer aldığını qabartmışdı.

Bəli, Ann-Lorens Petelin bir ay əvvəl Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə sövq edən fikirlər səsləndirməsi fonunda, onun hazırda erməni mədəni mirası məsələsindəki "təəssübkeşliyi" Parisin anti-Azərbaycan, ermənipərəst xəttinin tərkib hissəsidir. Şübhəsiz, bu sayaq gedişlərin heç bir faydası yoxdur. Əksinə, ziyanı var. Çünki belə yanaşmalar Ermənistan iqtidarının, o cümlədən xəstə erməni cəmiyyətinin düşdüyü illüziya bataqlığında daha da çapalamasına yol açır. Bataqlıq da bataqlıqdır və hər çapalama ora düşəni girdabda boğur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Avropanın ikili standartlar mərkəzi

## "Qoca qitə"də insan hüquqlarına göz yuman Avropa Parlamenti Azərbaycana qara eynəklə baxır

**Bütün parametrlərinə görə ermənipərəst kollektiv Qərbin anti–Azərbaycan kampaniyasına dəstək verdiyi şübhə doğurmayan Avropa Parlamenti növbəti dəfə ölkəmizə qarşı qətnamə qəbul edib. Avropanın ali qanunverici qurumunda heç bir əsasa söykənməyən, daxili mülahizələrdən, qərəzli münasibətdən çıxış edən müəyyən qrupun hazırladığı belə qətnamələrin qəbulu adi hal alıb.**



Öz evində qayda-qanun yarada bilməyən, vətəndaşlarının sivil hüquqlarını tapdayan, irqi, dini ayrı-seçkiliyin bütün təzahürlərinin tüğyan etdiyi ölkələrin parlamentarilərinin cəmləşdiyi, Yelisey sarayında əyləşmiş "dirijor"un çubuğu ilə hərəkət edən bu qurum Azərbaycanın daxili işlərinə qarışmağı özünə rəva bilir.

"Bu qəbildən sənədləri qəbul etməyi təşviq edənlərin niyyəti, həmçinin diqqəti Avropa cəmiyyətinin həqiqətən aktual sosial-iqtisadi və siyasi problemlərindən yayındırmaqdır". Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin Avropa Parlamentinin 25 aprel 2024-cü il tarixli qətnaməsi ilə bağlı açıqlamasında belə deyilir.

Azərbaycan Milli Məclisi də Avroparlamentin ölkəmizdə vətəndaş cəmiyyəti və insan hüquqları məsələsinə dair obyektivlikdən uzaq qətnaməsinə münasibətini bəyanat formasında açıqlayıb. Avropa Parlamentinin məlum qətnaməsini ölkəmizə qarşı qərəzli siyasi aksiya kimi qiymətləndirən Milli Məclisin bəyanatında bu beynəlxalq təşkilatın Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra ölkəmizə qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrilməsi təəssüflə qeyd olunur.

* * *

Bu, Avropa Parlamentinin səlahiyyət həddini aşdığı ilk belə hal deyil. 2024-cü il martın 13-də də qəbul etdiyi və demək olar ki, eyni məzmunlu qətnaməsi ilə də anti–Azərbaycan cəbhəsində yer aldığını, münasibət və yanaşmasında qərəzli olduğunu nümayiş etdirmişdi. Müzakirə mövzusu "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" olan Avropa Parlamentinin tribunasından çıxış edən "demokratiyanın tərənnümçüləri" qəbul etdikləri qətnamədə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə təhdid çağırışları yer alıb. Amma, təəssüf ki, "demokratiyanın satılmış carçıları" rolunda çıxış edən parlamentarilər Aİ-yə üzv ölkələrin daxilində elementar insan hüquqlarının pozulmasından qaynaqlanan çeşidli problemləri görməzdən gəlir, belə neqativ halları müzakirəyə çıxarmaqdan yayınırlar. Son yarım il ərzində Avropa Parlamenti Azərbaycanla bağlı artıq üçüncü qətnaməsini qəbul edib. İkinci qətnamənin tarixini yuxarıda qeyd elədik, ondan əvvəlki sənəd isə 2023-cü il oktyabrın 4-nə aiddir. Xatırladaq ki, həmin sənəddə Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi çağırışları yer almışdı.

"Başbilənlər"indən aldığı siyasi sifarişi can-başla icra edən Avropa Parlamenti unudur ki, insan hüquqları barədə "ağıl öyrətməyə" çalışdığı Azərbaycan Avropa İttifaqına daxil doqquz ölkənin enerji təhlikəsizliyini təmin edir. Albaniya İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Gürcüstan, Türkiyə, Macarıstan və Serbiyadan sonra ölkəmizdən təbii qaz tədarük edəcək 9-cu ölkə oldu. Yəqin bu siyahı yenə artacaq. Ona görə ki, Bosniya və Herseqovina, Monteneqro, Xorvatiya, Slovakiya və Şimali Makedoniya da bu istiqamətdə Azərbaycanla əməkdaşlıq etmək arzularını bildiriblər. Rəsmi Bakı onunla səmimi şəkildə, həm də qarşılıqlı faydalı əməkdaşlığa meyil edən bütün tərəfdaşlarla dil tapmağı bacarır.

* * *

Azərbaycanı insan hüquqlarının və əsas azadlıqların qorunmasına çağıran həmin hayparəst "səlibçi"lərə qanunun aliliyinin təmin edilməsindən dəm vurmaqdansa, otuz il ərzində qaçqın və məcburi köçkün həyatı yaşamış 1 milyon soydaşımızın ermənilər tərəfindən pozulmuş hüquqlarını araşdırmağa dəvət edirik. İkili standartlara söykənən qərəzli qətnamələrdə yer alan əsassız iddialara gəlincə isə, hər bir vətəndaşının haqqını qoruyan, sivil və tolerant Azərbaycan hüquqi dövlət prinsiplərini daim gözləyir və bəyan etdiyi demokratik prinsiplərə həmişə sadiqdir.

Qətnamədə adlar çəkilməsə də, insan hüquqlarının avropalı "müdafiəçiləri", çox güman ki, bu gün Bakının həbsxanalarında istintaqı davam edən erməni separatçılarını nəzərdə tuturlar. Bu adamlar konkret cinayət əməllərinə görə məhkəmə qərarları əsasında saxlanılıblar. Siyasi sifarişi yerinə yetirən avroparlamentarilərin həmin şəxsləri "siyasi məhbus" kimi qələmə verməsi həm cinayət-prosessual qanunvericiliyin tələblərinə, həm də beynəlxalq hüququn prinsiplərinə ziddir.

Bəli, hər bir fərdin hüquqlarının qorunması demokratiyanın vacib atributlarından hesab olunur. İntəhası, bu atributdan ayrı-ayrı dövlətlərə qarşı siyasi alət kimi sui-istifadə etmək cəhdləri heç cür qəbul oluna bilməz. Bu, həmçinin həmin Qərbin bəyan etdiyi demokratik və bəşəri dəyərlərə hörmətsizlik deməkdir.

Yadımızdadır ki, bir müddət əvvəl İrəvandan da buna bənzər çağırışlar eşidilirdi. Fəqət, daha Ermənistan hakimiyyəti doğru yolun haradan keçdiyini dərk edib. Avropa Parlamentində anti–Azərbaycan çıxışların səsləndiyi gün – aprelin 25-də bu ölkənin parlamentinin sədri Alen Simonyan İrəvanın Bakıdan təbii qazın alınması məsələsini müzakirə etməyə hazır olduğunu bəyan etdi: "Düşünürəm ki, Ermənistan Azərbaycandan təbii qaz alarsa, bu, müsbət hal olar. Biz bu məsələni müzakirə etməliyik. İndi də Rusiyadan aldığımız təbii qazın bir hissəsi Azərbaycan qazıdır". Qətnamə və bəyanatın eyni günə düşməsi heç də təsadüfi sayılmamalıdır. Əslində, Simonyanın açıqlaması elə Avropa Parlamentinin qətnaməsinə verilən cavab kimi qəbul edilə bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



Avropa Parlamenti birinci dəfə deyil ki, Azərbaycana qarşı qətnamə adlandırdıqları kağız parçası qəbul edir. Görünür, onlar hesab edirlər ki, Bakı bölgənin güclü oyunçusuna çevrilir və bunun qarşısını almaq, təzyiq göstərmək üçün qətnamələr qəbul etmək lazımdır. Həmin qüvvələr Azərbaycanı öz mövqeyindən qopardıb başqa səmtə yönəltməyə cəhd edirlər. Onlar uzun illər ərzində bu istiqamətdə "dərs verməklə", "ağıl öyrətməklə" məşğuldurlar. Amma əksər hallarda bu "dərsvermə" prosesi onların özlərinə qarşı çevrilir. Nəticədə Avroparlamentin imicinə, nüfuzuna ciddi zərbələr endirilir. Axı, sağlam düşüncəli qüvvələr yaxşı başa düşürlər ki, bu sənəd, sadəcə olaraq, siyasi yükə malik bir qətnamədir.

Digər tərəfdən, Avroparlament hansı əsaslarla və hansı haqla Azərbaycanın daxili işlərinə müdaxilə edir? Guya, bizdə hüquqlar pozulur. Yeri gəlmişkən, hazırda (dünən – red.) Berlində səfərdə olan dövlət başçımız çıxışında yaxşı bir ifadə işlətdi. Azərbaycan Prezidenti dedi ki, söhbət söz azadlığından, insan hüquqlarından gedirsə, onda internetin müstəqilliyi necə olsun? Əgər internet azad deyilsə, belə çıxır ki, KİV də azad deyil. Məgər Azərbaycan bu şəbəkədə ona qarşı yönəlmiş disbutların, çıxışların, bəyanatların qarşısını alır?

Aydın məsələdir ki, Avroparlamentin bu qətnaməsi növbəti kağız parçasıdır. Bölgədə son otuz ildə baş verən qanunsuzluqlara göz yuman ermənipərəst Qərb Azərbaycana qarşı "total hücuma" keçib. Bunlar hədər cəhdlərdir və Bakı belə "hücumların" qarşısını almağa hər an hazırdır.

### Ekspert rəyi

**Fərhad MƏMMƏDOV,**
**siyasi icmalçı**



Avropa Parlamentinin 25 aprel tarixli qətnaməsi ilə keçən dəfəki arasında elə bir ciddi fərq yoxdur. Burada təbii sual yaranır: eyni məzmunlu ikinci qətnamənin qəbuluna nə ehtiyac vardı? Bizə elə gəlir ki, indiki parlament bu addımı öz fəaliyyətini yayda yekunlaşdıracağına görə atıb. Bir neçə aydan sonra Aİ parlamentində seçkilər keçiriləcək. Hesab edirəm ki, ondan əvvəl Fransanın başçılıq etdiyi anti–Azərbaycan qüvvələr Bakı ilə bu qurum arasındakı münasibətlərə xələl gətirməyi düşünüblər.

Azərbaycanla Ermənistan arasında sərhədin demarkasiya prosesinin başlanmasını dünyanın, demək olar ki, bütün aparıcı dövlətləri və təşkilatları bu və ya digər formada alqışladılar. İki ölkə arasında münasibətlərin normallaşması prosesinə yalnız Fransa öz münasibətini bildirmədi. Bu faktın özü açıq-aşkar onu nümayiş etdirir ki, rəsmi Paris hazırkı mərhələdə Ermənistan və Azərbaycanın sülhə yaxınlaşmasını istəmir. İndi Emmanuel Makron Fransası Cənubi Qafqazın bu iki qonşu ölkəsi arasında sabitliyə səbəb olacaq sülh prosesini ləngitməkdən ötrü bütün resurslarını səfərbər edib. Avropa Parlamentinin Azərbaycana qarşı atdığı bu addımını da məhz Parisin yeritdiyi siyasətin tərkib hissəsi kimi qiymətləndirmək lazımdır.

O ki qaldı, avroparlamentin ölkəmizin daxili işlərinə qarışması məsələsinə, məqsəd Azərbaycanla Aİ-yə üzv dövlətlər arasındakı münasibətlərdə soyuqluq yaratmaqdır. Həmin qüvvələr hər vəchlə bu münasibətlərin normallaşmasının qarşısını almağa çalışırlar.

# Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir

**Qərbi Azərbaycan bizim tarixi torpağımızdır... şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**





Xalqımız əsrlər boyu tarixi torpaqlarında yaşamaq, öz hüquqlarını qorumaq üçün böyük fədakarlıq göstərsə də, müxtəlif dövrlərdə amansız sınaqlara, yurd itkisinə məruz qalmışdır. XX əsrin sonu – XXI əsrin əvvəllərində qonşuluğa və bəşəri normalara zidd olaraq Ermənistan düşmən qüvvələrin himayəsi altında Azərbaycan torpaqlarının 20 faizini ələ keçirmiş və 30 il işğal altında saxlamışdır.

Erməni millətçilərinin Azərbaycana qarşı tarixi düşmənçiliyi və xəyanətləri son 2 əsrdə – Rusiya imperiyası Şimali Azərbaycanı işğal edib erməniləri müxtəlif bölgələrimizdə məskunlaşdırandan və bolşeviklər Qərbi Azərbaycanda Ermənistan adlı dövlət yaradandan sonra davamlı terror, deportasiya və soyqırımı siyasəti ilə sistemli prosesə çevrilmişdir. Hələ I Pyotr dövründən başlayan Cənubi Qafqaza ermənilərin kütləvi şəkildə köçürülmə siyasəti XIX əsrdə Türkmənçay müqaviləsindən sonra daha geniş xarakter daşımışdır.

Gəlmə xalq olan ermənilər Qafqaza, xüsusən Azərbaycan torpaqlarına Qacarlar İranından və Osmanlı imperiyasından davamlı və kütləvi şəkildə miqrasiya etmişlər. Onlar bu regionda məskunlaşandan sonra qonşu xalqlara qarşı ərazi iddiaları ilə çıxış etməyə başlamışlar. Bu iddiaların əsas hədəfi "Dənizdən-dənizə Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək olmuşdur. İlk növbədə, Azərbaycan və Türkiyəyə, eləcə də Gürcüstana və hətta Rusiyaya qarşı ərazi iddiaları irəli sürülmüşdür.

Ermənilərin İrandan Qərbi Azərbaycana və Qarabağ ərazisinə köçürülməsinə rəhbərlik etmiş A.Qriboyedov yazmışdır: "Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... Biz müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük. Onları indiki sıxıntılarla (çətinliklərlə) necə barışdıraq və inandıraq ki, bu, uzunmüddətli olmayacaq. Bununla ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə müsəlmanların qorxusunu aradan qaldıraq".

Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycana xüsusi məqsədlə - onlara burada "yeni vətən" yaratmaq üçün köçürülmüşlər. Rus müəllifi M.Vladikin ermənilərin köçürülməsi barədə yazmışdır: "İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb, 1812–1829-cu illərdə baş vermiş müharibələrdən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər". Belə tarixi faktlar erməni və rus mənbələrində öz əksini tam aydın şəkildə tapmışdır.

Rusiya tarixçi-etnoqrafı N.Şavrov isə həqiqəti belə etiraf etmişdir: "XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər erməninin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır".

Tanınmış gürcü ziyalısı İlya Çavçavadze 1902-ci ildə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" əsərində XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa və Qafqazda ayaq tutub yeriməsindən, onların heç bir əsası olmayan "Böyük Ermənistan" iddialarını alt-üst etmişdir. İ.Çavcavadze tarixı həqiqətə üz tutaraq göstərmişdir ki, ermənilər aborigen albanları süni şəkildə qriqorianlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi" adlandırırlar. Bu faktlar bir daha təsdiq edir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları, avtoxton sakinləri Azərbaycan türkləri olmuş, ermənilər isə digər ölkələrdən bu ərazilərə mərhələli şəkildə köçürülmüşlər.

Sovet Rusiyası da ermənilərin rəğbətini qazanmaq üçün avantürist addımlar atmışdır. Rusiya Xalq Komissarları Soveti 1917-ci ilin dekabrında "Türkiyə Ermənistanı" haqqında dekret vermişdir. Bolşeviklər 1920-ci ilin 28 aprelində Azərbaycanı işğal edəndən 7 ay sonra "erməni daşnak respublikasını" sovetləşdirməklə Rusiyanın tarixi Azərbaycan torpağında Ermənistan dövləti qurması planlarını tamamlamışlar. Az sonra bolşeviklər tarixi Zəngəzurun qərb hissəsini də ermənilərə bağışlamışlar. 1923-cü ildə isə Moskva coğrafi vahid olan Qarabağı iki yerə ayırıb onun dağlıq hissəsində erməni muxtariyyət yaratmışlar.

Xalqların qardaşlıq ailəsi elan edilmiş keçmiş SSRİ zamanında –1961-ci ildə B.Nalbandyanın İrəvanda "Tbilisi qədim və orta əsrlərin ədəbi mənbələrində" adlı əsəri dərc edilmiş və burada Gürcüstanın paytaxtı qədim erməni şəhəri kimi təqdim olunmuşdur. Belə yalanlarla ermənilər Azərbaycan torpaqlarını "Şərqi Ermənistan" kimi qələmə verərək həmin əraziləri mənimsəmək fikrinə düşmüşlər. Bu məqsədlə mənfur qonşularımız azərbaycanlıları mərhələli şəkildə tarixi torpaqlarından didərgin salmış, onları kütləvi qətl və qırğınlara düçar etmiş, xalqımıza məxsus tarixi-mədəni abidə və yaşayış məskənlərini tamamilə dağıtmışlar.

Əzəli türk yurdu sayılan Qərbi Azərbaycanda azərbaycanlılar 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi torpaqlarından deportasiya olunmuşlar. 1988-ci ildə keçmiş ŞSRİ-nin süqutu ərəfəsində erməni millətçi separatizmi yaranmış dağıdıcı proseslərdən istifadə edərək, beynəlxalq hüquq, norma və prinsiplərə zidd olaraq uzun müddətdən bəri planlaşdırdıqları məkrli siyasəti gerçəkləşdirməyə başlamışlar. İlk növbədə, soydaşlarımızın 250 min nəfərlik son nəsilləri də ağlasığmaz işgəncələrlə Qərbi Azərbaycandan qovuldu və soyqırımına məruz qalmışdır. Bundan sonra Qarabağ işğal edilmiş və 750 min insan öz vətənində məcburi köçkünə çevrimişdir.

Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır. 1991-ci ilə kimi Qərbi Azərbaycanda ərazi toponimlərinin 90 faizindən çoxunu türk mənşəli adlar təşkil etmişdir. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi ərazidə olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək erməniləşdirilmişdir. Rusiya imperiyasının erməniləri İrandan, Türkiyədən Şimali Azərbaycanın qərb bölgələrinə və Qarabağa köçürmə siyasəti azərbaycanlıların öz əzəli torpaqlarından sıxışdırıb çıxarmaq məqsədi güdmüş və "erməni dövləti"nin yaradılmasına hazırlıq olmuşdur.

İlk mənbələr, o cümlədən arxiv sənədləri sübut edir ki, indiki Ermənistanda azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adlarının və digər toponimlərin dəyişdirilməsi prosesinə ilk dəfə 1919-cu ildə Azərbaycan ərazisində erməni dövləti yaradıldıqdan dərhal sonra Ermənistan Respublikası hökumətinin qərarı ilə başlanılmışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1935-ci ilədək orada 190-dan artıq azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Sonrakı dövrlərdə azərbaycanlılara məxsus tarixi adların dəyişdirilməsi prosesi daha da sürətləndirilərək kütləvi miqyas almış və 1991-ci ildə müstəqil Ermənistan Respublikası yaradıldıqdan sonra əsasən başa çatmışdır.

Xalqımıza qarşı edilən bu tarixi xəyanətkarlıq haqqında Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bizim tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətraf bölgələrlə məhdudlaşmır. O qədər də uzaq olmayan tarixə, XIX əsrin statistikasına baxsaq görərik ki, azərbaycanlıların yaşadıqları ərazi çox böyük olmuşdur. İndiki Ermənistan, əslində, Azərbaycanın tarixi torpağıdır. Ona görə, gələcəkdə biz bütün tarixi torpaqlara qayıdacağıq. Bunu gənclər də, uşaqlar da bilsinlər. Biz bu amalla yaşamalıyıq, yaşayırıq, yaşayacağıq".

2020-ci ildə Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 44 günlük Vətən müharibəsində qazandığımız tariximizə ən böyük qəhrəmanlıq salnaməsini həkk etmişdir. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm qələbə yeni reallıqlar yaratmışdır.

Qarabağın azadlığı uğrunda vətən müharibəsi xalqımızın tarixi zəfəri ilə başa çatandan 8 ay sonra Azərbaycan və Türkiyə prezidentləti İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanla imzaladıqları 2021-ci il tarixli Şuşa Bəyannaməsi tarixi siyasi əhəmiyyətli hadisə olmaqla böyük rəmzi məna daşıyır. Azərbaycan lideri tarixi mərasimdə bu məsələyə toxunaraq qeyd etmişdir: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. 100 ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artırmağa xidmət edir.

Sevindirici haldır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilmiş, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılmışdır. Dövlət başçısı Qərbi Azərbaycanın soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən bəyan etmişdir.

Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi ötən ilin payızında qəti olaraq həll ediləndən sonra xalqımızın yeganə problemi öz əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycan torpaqlarının həqiqi sahiblərinə geri qaytarılması, vaxtilə bu torpaqlarda yaşamış Azərbaycan əhalisinin hüquqlarının bərpa olunmasıdır. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: "Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir".

Ümummilli lider Heydər Əliyev də Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizəni özünün fəaliyyətinin əsas məqsədi kimi daim səsləndirmişdir. İtirilən torpaqların geri qaytarılmasının zəruriliyi ilə bağlı Ulu öndər Heydər Əliyev demişdir: "Mən belə hesab edirəm ki, əldən gedən torpaqlar nə vaxtsa qaytarılmalıdır. Xalqımız da bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur, hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər qaytaracaqdır".

Ümummilli lider Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilməsi haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı böyük elmi-siyasi və tarixi əhəmiyyətə malik bir sənəddir. Burada haqlı olaraq qeyd edilir ki, keçmiş SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 745 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Təkcə bu cinayət aktlarının həyata keçirilməsi nəticəsində 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan ərazisindən kütləvi şəkildə və zorakılıqla sürgün edilmişdir.

Prezident İlham Əliyev bu tarixi zorakılığı kəskin ittiham etmişdir: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi 1905, 1918-ci illərdə Azərbaycanlı əhalisini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə Azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".

Xalqımız bu gün Zəngəzura, İrəvana və digər əzəli Azərbaycan torpaqlarına getmək kimi tarixi hüququmuzu beynəlxalq birlik qarşısında qaldırır. Zorla didərgin salınmış dədə-baba yurdlarına geri qayıtmaq hər bir soydaşımızın haqqıdır. Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Prezident İlham Əliyev onların əzəli torpaqlarına qayıtmalı olduqlarını qətiyyətlə söyləmişdir: "Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır".

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı tarixi bir zərurətdir və bu, ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi olacaq. Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq bu istiqamətdə hərtərəfli işlərə başlanılıb. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın qüdrəti, apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir.

***İradə HÜSEYNOVA,***
***BDU-nun kafedra müdiri, professor,***
***Əməkdar müəllim***

# Xalqımıza nifrət erməni xislətidir

**Qərbi Azərbaycanın Amasiya rayonundakı Amasiya kənd orta məktəbində azərbaycanlı və erməni şagirdləri birgə təhsil alırdılar. Məktəbin direktoru Aşot Avetisyan, direktor müavinləri Rima Avetisyan və Əziz Həsənov idi. Atam Güləhməd Hacıyev isə burada dil və ədəbiyyat müəllimi işləyirdi.**



Anam deyirdi ki, qardaşım Gülməmməd orta məktəbi əla qiymətlərlə bitirərək qızıl medala layiq görülmüşdü. Qonşuluqda olan erməni Mişa da qızıl medala namizəd idi. Lakin erməni məkri bu məsələdə də özünü büruzə verdi. Qardaşıma gümüş, Mişaya isə qızıl medal verilməsi qərara alındı. Atam isə həmin medalı qəbul etmədi. Bir müddətdən sonra direktor Aşot Avetisyan medalı evimizə gətirdi…

Məktəbdə riyaziyyat müəllimi işləyən bacım Sevda isə danışır ki, kimya fənnini tədris edən Hruş Baqdarasyan daim azərbaycanlıların əleyhinə şər-böhtan yağdırır, erməni şagirdlərini milli ədavəti qızışdıran və rayon mərkəzində keçirilən mitinqə aparır, burada uşaqlara "Türklər rədd olsun!" şüarını səsləndirməyə məcbur edirdi.

O illərdə erməni şovinistlərinin törətdikləri vəhşiliklər bitib-tükənmirdi. İbrahim adlı kişi xəstəxanada təsərrüfat müdiri işləyirdi, necə deyərlər, günün günorta çağı 17 yaşında oğlunu öz həyətlərində ağacdan asmışdılar. Bu səhnəni görən ata dəli olmuşdu.

Bacım danışır ki, ötən əsrin sonlarında başlayan milli ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. 1988-ci ilin yanvarında Qafan və Mehridən ilk qaçqınlar Azərbaycana pənah gətirdilər. 1988-ci il fevralın 19-da İrəvanda "Ermənistan türklərdən təmizlənməlidir!", "Ermənistanda yalnız ermənilər yaşamalıdır" kimi mənfur şüarlarla mitinqlər keçirilməyə başlandı. Amasiya rayonunda da erməni millətçiləri mitinqlər təşkil edirdilər.

1987-ci ildə Ermənistanda millətçilik çağırışları günü-gündən güclənirdi. Qarabağın Azərbaycandan qoparılması istiqamətində fəal iş aparılır, törədiləcək təxribatların planı hazırlanırdı. Xaricdə və SSRİ-də olan ermənilər bu planın icrası üçün böyük vəsait toplamışdılar. Hər bir erməninin bu işdə yüksək səviyyədə iştirakı təbliğ olunurdu. Xüsusilə mətbuat, radio və televiziya işçilərinin çevikliyinə böyük diqqət yetirilirdi.

"Daşnak" partiyası daha fəal mövqedə dayanır, bütün sahələrdə Azərbaycana endiriləcək zərbələrin kompleks planını yayırdı. Moskvadakı qəzet, jurnal və televiziya işçiləri Qarabağ hadisələrində ermənilərin mövqeyini müdafiə etməyə cəlb olunurdular. Ermənistan mətbuatı, radio və televiziyası öz millətçi çıxışları ilə erməni xalqını azərbaycanlıların üzərinə hücuma səfərbər edirdi.

1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritdi, nəticədə minlərlə dinc sakin qətlə yetirildi, yaşayış məntəqələri dağıdıldı, talan edildi və yandırıldı. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovuldu, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirildi, 1154 nəfər isə yaralandı. Onlar erməni zorakılığından öz həyatlarını xilas etmək üçün Azərbaycana sığınmaq məcburiyyətində qaldılar.

Vaxt gələcək, Qərbi Azərbaycandan didərgin salınanlar Prezidentimizin müdrik siyasəti nəticəsində öz ata baba yurdlarna – İrəvana, Göyçəyə, Ağbaba mahalına, Şörəyilə qayıdacaqlar…



***Səidə HACIYEVA,***
***Füzuli rayonu Araz Yağlıvənd kənd tam orta məktəbinin direktoru***

# "Yeddilər qrupu" bizim qaçqınları niyə görmür?

**"Yeddilər qrupu" (G7) ölkələrinin xarici siyasət idarələri rəhbərlərinin 17–19 aprelin 2024-cü il tarixlərində İtaliyanın Kapri adasında keçirilmiş görüşünün yekununda verilmiş bəyanatda "qaçqınların" qayıdış hüququnun təmin edilməsi ilə bağlı Azərbaycana çağırış edilsə də, 37 il əvvəl 250 min soydaşımızı Qərbi Azərbaycana qovmuş Ermənistanın ünvanına törətdiyi kütləvi deportasiya ilə bağlı heç nə deyilməyib.**

Qərbi Azərbaycan icması "Yeddilər"in birtərəfli və qərəzli çağırışında Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququnun nəzərə alınmaması ilə bağlı kəskin etiraz ifadə edən bəyanat yaymışdır. Açıqlaqmada bildrilir ki, sərgilənən belə mövqe qaçqın azərbaycanlılara münasibətdə etnik və dini əsasda ayrı-seçkilikdir. Qərbi Azərbaycan İcması G7-də təmsil olunan bütün dövlətlərə, eləcə də Avropa İttifaqına azərbaycanlıların Ermənistana qayıdış hüququna dəstək verməsi ilə bağlı dəfələrlə müraciətlər edib.

Bəyanatda qeyd edilir ki, G7-nin açıq-aşkar ayrı-seçkiliyə yol verməsi insan hüquqlarına ziddir və Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesinə zərər vurur: "Qərbi Azərbaycan İcması G7 dövlətlərini etnik və dini mənşəyindən asılı olmayaraq, bütün insanların hüquq və ləyaqətlərinin bərabərliyi prinsipinə hörmət etməyə, Ermənistandan qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verməməyə və onların qayıdış hüququna hörmət etməyə çağırır".

***XQ***

# Dünya Ermənistanın türk torpağı olduğunu bilməlidir

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qərbi Azərbaycan Araşdırmalar Mərkəzində "Biz tarixi torpaqlara qayıtmalıyıq" mövzusunda konfrans keçirilib.**

Elmi məclisdə çıxış edən ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor, Qərbi Azərbaycan İcması fəalı Mahirə Hüseynova, Sosial Tədqiqatlar Mərkəzi idarə heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc, mərkəzin bölmə müdiri, fəlsəfə doktoru Əfqan Vəliyev, ADPU-nun elmi-təşkilat şöbəsinin müdiri, professor İbrahim Bayramov Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının gerçəkləşdirilməsi ilə bağlı atılan addımlardan, qarşıda duran vəzifələrdən söhbət açıblar.

Müzakirələrdə Atatürk Mərkəzinin beynəlxalq əlaqələr şöbəsinin müdiri, fəlsəfə doktoru Nazir Əhmədli, AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan şöbəsinin müdiri, dosent Cəbi Bəhramov torpaqlarımızda yaradılmış Ermənistan ərazisinin türk tarixinin mükəmməl elmi mənzərəsinin yaradılması ilə bağlı aktual məsələlərə diqqət yetiriblər.

Konfransda Qərbi Azərbaycan həqiqətlərinin gənc nəslə çatdırılmasının və beynəlxalq aləmə tanıdılmasının zəruriliyi vurğulanıb. Bu mövzuda yeni yazılmış "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" və "Qərbi Azərbaycana Qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz" kitabları iştirakçılara təqdim edilib. Sonda Qərbi Azərbaycana həsr olunmuş videoçarx nümayiş etdirilib.

**Kəmalə ABDİNOVA**
**XQ**

Təqvim yada salır

# Bir ədibin əbədiyyət manifesti

**Dünən ölkənin elmi-mədəni və ədəbi-bədii ictimaiyyəti XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin anadan olmasının 116-cı ildönümünü dərin ehtiram və qədirbilənliklə qeyd etdi.**



Unudulmaz ədibin yaşadığı və fəaliyyət göstərdiyi, xatirəsini yaşadan ünvanlarda keçirilən müxtəlif anım tədbirlərində milli ədəbiyyatımızın Mir Cəlal fenomeninə ətraflı nəzər salındı, onun istedadlı ədəbiyyatımızın ölməz klassiki olduğunu vurğuladı. Xalq şairi Nəriman Həsənzadə, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Təhsin Mütəllimov və Milli Məclisin deputatı, akademik Nizami



Cəfərov Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatına, elminə müstəsna xidmətlər göstərdiyini söylədilər. Yetirmələri bildirdilər ki, Mir Cəlal Paşayev fəaliyyəti, yaradıcılığı ilə ölkəmizdə ədəbiyyatın, təhsilin inkişafına böyük töhfələr verib, alim və müəllim kimi tələbələrinə dəstək olması ilə bənzərsiz bir örnək yaradıb.

Sonra ADA Universitetinin rektoru, professor Hafiz Paşayev atasının öz övladlarını xalqa sevgi və milli ideallara sədaqət ruhunda böyütdüyünü, ailədə həmişə onun pak əməlləri ilə iftixar duyulduğunu söylədi, xatirələrini bölüşdü. Hafiz Paşayev Mir Cəlalın ən yaxşı əsərlərini bu ünvanda yazdığını, "Ədibin evi"nin yaradılmasında da məqsədin bu yeri mədəniyyət ocağına çevirmək və bununla da Mir Cəlal irsini xalqa daha yaxşı çatdırmaq olduğunu qeyd etdi.

Milli Aviasiya Akademiyasının rektorunun köməkçisi, dosent Gülnarə Əhmədova bu ali məktəbin rəhbəri, Mir Cəlalın oğlu, akademik Arif Paşayevin atasının xatirəsinə göstərilən ehtirama görə iştirakçılara ünvanlanmış razılığını çatdırdı. Akademiyanın tələbələri Mir Cəlal Paşayevin xatirəsinə həsr olunan şeir və musiqilərlə, səhnəciklərlə mərasimə xoş ovqat və təntənə gətirdilər.

Azərbaycan Milli Kitabxanasında isə ədəbiyyatşünas-alim, professor, Əməkdar elm xadimi, Mir Cəlal Paşayevin həyat və yaradıcılığını özündə əks etdirən "Böyük yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayev" adlı virtual sərgi və "Mir Cəlal Paşayev" adlı elektron məlumat bazası yaradılıb.

Virtual sərgidə rəsmi sənədlər, ədibin əsərləri, ədəbi və ictimai fəaliyyəti haqqında nəşr olunan müxtəlif dillərdə kitablar, dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar təqdim olunub.

Virtual sərgi ilə tanış olmaq istəyənlər **https://anl.az/el/vsb/Mir_Celal/index.htm** linkindən istifadə edə bilərlər.

Elektron məlumat bazasında isə "Rəsmi sənədlər", "Həyat və yaradıcılığı", "Həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxslər Mir Cəlal haqqında", "Mir Cəlalın müdrik kəlamları", "Mir Cəlal görkəmli şəxslər və ədəbiyyatımız haqqında", "Mükafatları", "Mir Cəlal dünya kitabxanalarında", "Əsərləri", "Haqqında (kitablar, məqalələr, dissertasiya və avtoreferatlar)" və bir sıra materiallar nümayiş olunub.

**Tahir AYDINOĞLU**
**XQ**

# Gənc tədqiqatçıların VIII beynəlxalq elmi konfransı



**Bakı Mühəndislik Universiteti (BMU) və Dövlət Gömrük Akademiyasının birgə təşkilatçılığı ilə "Gənc Tədqiqatçıların VIII Beynəlxalq Elmi Konfransı" öz işinə başlayıb.**

BMU-nun ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri rektor Yaqub Piriyev açaraq, builki konfransın "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində və Ümummilli liderin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbirlər sırasında yer tutduğunu bildirib. Prezident İlham Əliyev tərəfindən Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvanın yaşıl enerji zonası elan edildiyinə, həmin ərazilərdə görülən işlərə diqqət çəkən rektor yaşıl enerjinin Azərbaycanın əsas prioritetlərindən biri olduğunu qeyd edib. Noyabr ayında paytaxtımızın COP29 kimi mötəbər tədbirə evsahibliyi edəcəyini deyən Y. Piriyev bunun beynəlxalq səviyyədə Azərbaycana böyük hörmət və etimadın bariz nümunəsi olduğunu vurğulayıb. Rektor əsas mövzuları Böyük Qayıdış konsepsiyası, yaşıl enerji, süni intellekt olan konfransın ekoloji problemlər, yaşıl enerji ilə bağlı elmi baxışların bölüşdürülməsi üçün böyük fürsət olduğunu bildirib.

Beynəlxalq tədbirə 9 ölkədən ümumilikdə müxtəlif elm sahələri üzrə 700-ə yaxın tezis və məqalə göndərildiyi, onlardan 548-nin konfransın proqramına daxil edildiyi qeyd olunub.

Dövlət Gömrük Akademiyasının rəisi Qulu Novruzov Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin siyasi irsinin gənc tədqiqatçılar üçün böyük araşdırma mənbəyi olduğunu qeyd edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ müharibəsində qazanılan şanlı zəfərdən sonra intellektual potensialın gücləndirilməsinə diqqətin daha da artırılmasının vacibliyini bildirib.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov dövlətin həyata keçirdiyi uğurlu ekoloji siyasətdən söz açıb. Bu sahədə davamlı tədqiqatların vacibliyini də vurğulayan millət vəkili ekoloji tarazlığın qorunması istiqamətində görülə biləcək işləri sadalayıb, o cümlədən yaşıl texnologiyaların tətbiqi, alternativ və bərpa olunan enerji mənbələri kimi məsələləri nəzərə çatdırıb.

Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov isə konfransın əhatə etdiyi sahələrin davamlı inkişafı istiqamətində son illər atılan addımlar, eləcə də ali təhsil müəssisələrinin qarşısında duran mühüm vəzifələrdən bəhs edib.

Çıxışlardan sonra plenar iclasda elmi məruzələr dinlənilib və sonda məruzəçilərə sertifikatlar təqdim olunub. Qeyd edək ki, ikigünlük konfransda gənc tədqiqatçılar əsas istiqamətlər üzrə seksiyalarda məruzələrlə çıxış edəcəklər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Bəstəkarın xatirəsinə festival-müsabiqə

**Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və Bülbül adına orta ixtisas musiqi məktəbinin birgə təşkilatçılığı ilə Xalq artisti, bəstəkar Süleyman Ələsgərovun 100 illik yubileyinə həsr edilmiş milli musiqi alətləri ifaçıları və xanəndələrinin respublika festival – müsabiqəsi keçirilib.**

Müsabiqə respublikada gənc istedadların inkişafının dəstəklənməsi, ifaçılıq sənətininin inkişafı məqsədi ilə təşkil olunub. Respublikanın müxtəlif rayon və şəhərlərindən uşaq musiqi və incəsənət məktəblərinin qatıldığı bu müsabiqədə 420 nəfər iştirak edərək, diplom və fəxri fərmanlarla təltif edilib. Müsabiqənin son günü Beynəlxalq Muğam Mərkəzində qaliblərin ifasında qala-konsert keçirilib və



onlara diplom və fəxri fərmanlar təqdim edilib.

Müsabiqədə 1-ci yer tutanlar arasında Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli musiqi məktəbinin xanəndəlik sinfinin 3-cü sinif şagirdi 10 yaşlı Elay Əliyevin fikirlərini öyrəndik.

– Müsabiqədə 2-ci dəfə iştirak edirəm. Keçənilki müsabiqədə qalib gələ bilməmişdim. Amma hazırlaşdım və budəfəki müsabiqədə qalib oldum. Yarışın münsifləri arasında Əməkdar artist Nuriyyə Hüseynova da var idi. Həyəcanlı olsam da, sözləri Zeynal Cabbarzadəyə, musiqisi Cahangir Cahangirova məxsus olan "Ay qız" mahnısını ifa etdim və münsiflər tərəfindən bəyənildi. Qalib olmağım məni daha da həvəsləndirdi. Növbəti müsabiqələrdə yenə də xalq musiqilərimizə müraciət edəcək və daha da yaxşı oxumağa çalışacağam.

Qeyd edək ki, Elay Əliyev Rostropoviçlər adına 21 nömrəli musiqi məktəbinin müəllimi Şirazi Quliyevin tələbəsidir.

***XQ***

# Azərbaycan Naşirlərinin Forumu

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Azərbaycan Nəşriyyatları Assosiasiyası, Azərbaycan Milli Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi və Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə Azərbaycan Naşirlərinin I Forumu keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli elm və texnologiyanın inkişafı ilə baş vermiş dünya sənaye inqilablarından danışaraq qeyd edib ki, bu tərəqqi sayəsində elektron kitab və kitabxanalar meydana gəlsə də, ənənəvi kitablar da öz oxucusunu qoruyub saxlaya bilib, hətta son illərdə kitab dövriyyəsində artım müşahidə edilib. Akademik bildirib ki, Azərbaycan kitabçıları və naşirləri öz fəaliyyətlərini həm real, həm də virtual bazarın tələblərinə uyğun qurmalı, kağız kitabların qalmasında, həmçinin elektron kitabların inkişafında maraqlı olmalıdırlar.

Azərbaycanda elektron kitabxana işinin təşkilində müəyyən problemlərin olduğunu deyən AMEA prezidenti naşir və kitabçılarımızın dünyaya çıxması baxımından bu istiqamətin təkmilləşdirilməsinin vacib olduğunu söyləyib. İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan Naşirlərinin I Forumunun AMEA-da keçirilməsi bu sahədəki redaktor, korrektor, kitab menecmentliyi kimi mövcud problemlərin müzakirəsinə və həlli yollarına öz töhfəsini verəcək.




Azərbaycan Nəşriyyatları Assosiasiyasının sədri, Naşirlər Forumu və "Oxu günü"nün layihə rəhbəri Şəmil Sadiq deyib ki, Azərbaycan Naşirlərinin I Forumu ölkənin müstəqillik dövründə inkişaf edən özəl nəşriyyat sektorunun bir növ hesabatlılığını, ümumi problemlərin həlli ilə bağlı təkliflərin formalaşmasını, yeni layihələrin hazırlanması üçün şəbəkələşmənin təmin olunmasını hədəfləyir. Assosiasiyanın hesabatını təqdim edən natiq hazırda bu birliyin 28 üzvü birləşdirdiyini, nəşriyyat işinin sistemləşdirmək, nəşriyyatlararası əlaqələr yaratmaq və dünya kitab festivallarında iştirak baxımından mühüm rol oynadığını diqqətə çatdırıb.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa bildirib ki, forum Azərbaycan cəmiyyətinin kitaba olan diqqətini artırmaq baxımından çox önəmlidir. O bildirib ki, bu gün ölkəmizdə müəyyən nəşr problemləri olduğu kimi, oxucu problemi də var və bunların aradan qaldırılması ilə bərabər, kitaba olan marağı artırmaqla oxucu kütləsini də qorumaq lazımdır. Komitə sədri kitaba olan marağı artırmaq üçün kitabların reklamının ödənişsiz olmasının vacibliyini bildirib, həmçinin kitabın zəruri ehtiyac malları kateqoriyasına daxil edilməsinin önəmini vurğulayıb.

Məclisdə Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Türkiyə Mətbəə və Nəşriyyatları Birliyinin sədri Mustafa Karagüllüoğlu və Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu da müasir naşrlik sahəsinin təkmilləşdirilməsi, kitabın cəmiyyətdə təbliği baxımından önəmli məsələləri vurğulayıblar.

Forum öz işini "Nəşriyyat menecmentliyi və kitab marketinqi", "Redaktə və tərcümə problemləri", "Müəllif hüquqları və beynəlxalq əməkdaşlıqlar", "Tərtibat, dizayn və qrafika", "Uşaq nəşrləri və yeni yanaşma" mövzusunda panellərlə davam etdirib.

Forum çərçivəsində aprelin 27–28-də Milli Elmlər Akademiyasının həyətində "Oxu günü-10" sərgi-yarmarkası təşkil olunacaq.

**XQ**

# Görkəmli musiqiçinin kataloqu



**Xalq artisti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, "Şöhrət" və "Şərəf" ordenli professor Tofiq Bakıxanova həsr olunmuş kataloqun təqdimat mərasimi olub.**

Milli Azərbaycan Tarixi Muzeyinin akt zalında təşkil olunmuş tədbirdə həm görkəmli bəstəkar Tofiq Bakıxanovun 3 il əvvəl bu muzeyə bağışladığı şəxsi əşyalarının bir hissəsindən ibarət sərgiyə tamaşa etdik. Sonra Bakıxanovlar şəcərəsinin sonuncu mogikanı haqqında akademik çıxışlar və videoçarx dinlənildi. Tədbirin bədii hissəsində tanınmış sənət adamları bəstəkarın əsərlərini ifa etdilər.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı 94 yaşlı tanınmış bəstəkar Tofiq Bakıxanovun əvəzolunmaz yaradıcılıq fəaliyyəti barədə məlumat verərək xatırlatdı ki, təqdim olunan kataloqa professorun fotoşəkilləri, sənədləri, şəxsi əşyaları və digər sənədlər daxil edilib. Sonra Tofiq Bakıxanov bu tədbirin təşkilinə, həmçinin, kataloqun ərsəyə gəlməsinə görə muzey rəhbərliyinə və əməkdaşlara təşəkkürünü bildirib.

Muzeyin Sənədli Mənbələrin elmi fond şöbəsinin müdiri, qeyd olunan kataloqun həmmüəllifi Esmira Rəhimova isə bəstəkar Tofiq Bakıxanovun həyat və fəaliyyəti haqqında geniş məlumat verdi. Eləcə də tədbirin bədii hissəsində Respublika və Beynəlxalq miqyaslı müsabiqələrin laureatları – Kəmalə Mirbabayeva, Leyla Dadaşova, Firuzə Qədimalıyeva və Hüseynağa Səmədovun ifasında musiqi nömrələri səsləndirildi.

***İttifaq MİRZƏBƏYLİ***

# Uşaqlar gənclər kitabxanasında




**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Bakı şəhəri Suraxanı rayonu 89 saylı tam orta məktəbin şagirdləri ilə görüş olub.**

Beynəlxalq Kitab və Müəllif Hüququ Günü ilə bağlı təşkil olunan tədbirdə kitabxananın direktor müavini Günay Həsənova məktəblilərə mütaliənin insan həyatına, onun savadlı, geniş dünyagörüşlü şəxsiyyət kimi formalaşmasına göstərdiyi təsirdən danışıb və kitab oxumağa önəm verməyi tövsiyə edib.

Sonra kitabxananın iş prinsipi, fondunda olan uşaq ədəbiyyatı, burada təşkil edilən görüşlər, kitab təqdimatları, sərgilər, oxuculara göstərilən elektron xidmətlər haqqında məlumat verilib, müasir dövrdə ənənəvi mütaliə ilə yanaşı, elektron və audio kitablarla ünsiyyətin mühüm əhəmiyyət daşıdığı bildirilib.

Məktəblilər kitabxananın "Nadir nüsxələr" fondunda saxlanılan ədəbiyyat nümunələri, Brayl əlifbası ilə olan "Qurani-Kərim" haqqında məlumat alıb, "Musiqi" bölməsində saxlanılan nadir qrammafon valları, not nəşrləri ilə tanış olublar. "Qədim diyar Naxçıvan – 100", "Tarixi qələbə, Zəfər günü", "Vətən şəhidləri" və "İslam dünyasının Mədəniyyət Paytaxtı Şuşa" adlı sərgilər onlarda zəngin təəssürat yaradıb.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Makron Avropanın xilasını Fransaya baş əyməkdə görür

**“Fransızların əsas həyati qayğısı əsl fransız olmaqdır”. Nik Yapp və Mişel Sirettin qələmə aldıqları “Bu qəribə fransızlar” adlı əyləncəli kitab bu cümlə ilə başlayır. Fransızları yaxşı tanımaq istəyənlər kitabı əldə edib oxuya bilərlər. Ona görə də, kitab barədə çox danışmaq istəmirik, bizi maraqlandıran müəlliflərin fransızlar haqqında toxunduqları bir məqamdır.**



Müəlliflər yazırlar: “Fransızlar özlərini dünyada yeganə əsl sivil xalq hesab edirlər və əmindirlər ki, onların vəzifəsi seçildikləri şəfəq ilə yolları işıqlandıraraq başqa xalqlara rəhbərlik etməkdir”. Yəni, fransızlar da bəzi xalqlar kimi, özlərini “seçilmiş” sayırlar və düşünürlər ki, digərləri onların arxasınca getməlidirlər. Bu istək özünü xüsusilə də Fransa prezidenti Emmanuel Makronun hakimiyyəti illərində daha qabarıq göstərir. Yelisey Sarayının müvəqqəti sakini müxtəlif kürsülərdən hamıya xitab edir ki, bəs, “Köhnə qitə” xalqları Fransanın dediklərinə qulaq asmalıdır, yoxsa “Avropanı ölüm gözləyir”.

Fransa prezidenti Emmanuel Makron cümə axşamı Sorbon Universitetində Avropanın gələcəyi ilə bağlı çıxışında yenə də qorxulu proqnozlar səsləndirib: “Növbəti illərdə zəifləmə, hətta məcburi sıxışdırılma riskləri böyükdür. Biz aydın şəkildə dərk etməliyik: Avropa ölümcül vəziyyətdədir və ölə bilər”. Prezident öz çıxışında nəinki “Köhnə qitə” üçün mümkün apokaliptik ssenarini səsləndirib, həm də özünü müttəfiqlərə fəaliyyət planı təklif etməyə hazır lider kimi qələmə verməyə çalışıb. Əsas tezislər ondan ibarət olub ki, Avropanın ABŞ-dan strateji və texnoloji müstəqilliyə ehtiyacı var. Prezidentin sözlərinə görə, avropalılar göstərməlidirlər ki, onlar heç vaxt ABŞ-ın vassalı olmayıblar və dünyanın digər regionları ilə müstəqil dialoq aparmağa hazırdırlar. E.Makron Rusiyanı da onların sırasına daxil edərək deyib: “Təhlükəsizlik sistemimiz Ukraynadakı münaqişə bitdikdən sonra Rusiya ilə qonşuluq münasibətləri qurmağa kömək edəcək”.

Fransa prezidenti xüsusilə qeyd edib: “Biz ümumi təhlükəsizlik sisteminin bərpası üçün şərt olan Avropanın etibarlı müdafiəsi konsepsiyasına mahiyyət verməliyik. Önümüzdəki aylarda mən bütün tərəfdaşlarımızı bu Avropa Müdafiə Təşəbbüsünü yaratmağa dəvət edəcəyəm və bu, ilk növbədə, strateji konsepsiya olmalıdır və bundan sonra müvafiq imkanlar əldə edəcəyik”. E.Makronun sözlərinə görə, “Fransanın müdafiə strategiyasının mərkəzində” nüvə çəkindirməsi dayanır ki, bu da bütün Avropa qitəsi üçün “müdafiənin ən mühüm elementi”dir. “Məhz bu etibarlı müdafiə sayəsində Avropadakı bütün tərəfdaşlarımızın gözlədiyi təhlükəsizlik zəmanətlərini yarada biləcəyik”, – deyən E.Makron əlavə edib ki, raketdən müdafiə sisteminin inkişafı, Ümumavropa Hərbi Akademiyasının yaradılması, müdafiə sektorunda öz istehsal proqramının hazırlanması və davamlı maliyyələşdirilməsi, həmçinin kibertəhlükəsizlik kimi “yeni münaqişə sahələrinə” investisiyaların artırılması zəruridir.

Bəs E.Makronun bu təkliflərinin həyata keçməsi nə dərəcədə realdır? 2017-ci ilin sentyabrında Fransa prezidenti Sorbonda eyni mövzuda tələbələr qarşısında çıxış etmişdi. Həmin vaxt E.Makron “Avropanın çox zəif, ləng və səmərəsiz olduğunu” vurğulamış və onu necə gücləndirmək üçün bir sıra təkliflər irəli sürmüşdü: ümumavropa iqtisadi stimullaşdırma tədbirləri ilə yanaşı, təhlükəsizlik siyasəti sahəsində “Ümumi Strateji Mədəniyyət” in tətbiq edilməsini, 2020-ci ilə qədər ümumavropa çevik qüvvələrinin yaradılmasını, vahid müdafiə büdcəsinin və ümumi hərbi doktrinanın təsdiqlənməsini təklif etmişdi. Bayırda 2024-cü ildir və E.Makronun bu təkliflərindən heç biri reallaşmadı.

Bu arada, Fransa mediası prezident Makronun Avropanın yenidən qurulması ilə bağlı ikinci nitqini onun çıxışına dəvət olunmuş fransız avrodeputatlarının qiymətləndirə bilməməsinə diqqət çəkir. Prezidentin Sorbona səfəri Avropa Parlamentinin Strasburqda keçirilən sessiyasının yekun gününə təsadüf etdi və orada, məsələn, büdcəyə düzəlişlər və Aİ sərhədlərində nəzarətlə bağlı sənədlərə səsvermə keçirilirdi. Bu, Avropa Parlamentinin üzvlərinin Parisdə deyil, Strasburqda olmasını tələb edirdi. Buna görə də fransalı siyasətçilər E.Makronun tənqiddən çəkinərək belə addım atdığını bildirirlər. Məsələn, Avropa Parlamentinin deputatı Nora Mebarek bildirib ki, “Avropa Parlamentinin demokratik həyatına sadiqliyini göstərmək üçün, Avropa demokratlarının Strasburqdakı Avropa parlamentinin iclasında səs verdiyi anda Parisdən Avropa haqqında danışmamaq daha yaxşı olardı”.

Bundan başqa, E.Makronun çıxışı ərəfəsində Fransa prezidentinin Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin əvəzlənməsi ilə bağlı Avropa liderləri ilə gizli razılığa gəlməsi ilə əlaqədar xəbərlərin də mətbuata sızması xüsusi fon yaradıb. “Bloomberg”in çərşənbə günü mənbələrə istinadən verdiyi məlumata görə, prezident Makron Aİ ölkələrinin nümayəndələri ilə İtaliyanın keçmiş baş naziri və Avropa Mərkəzi Bankının keçmiş sədri Mario Draqinin xanım fon der Lyayenin vəzifəsinə namizədliyini müzakirə edib. Xatırladaq ki, martın əvvəlində Avropa Xalq Partiyasının qurultayında Ursula fon der Lyayen ikinci müddətə Avropa Komissiyasının rəhbəri vəzifəsinə rəsmi olaraq namizəd göstərilib. Bununla belə, artıq mətbuatda onun yenidən seçilməsinə zəmanət verilmədiyinə dair məlumatlar yayılıb. Doğrudur, İtaliya hökuməti bu xəbəri təkzib edib, amma çoxları bu məlumatın doğruluğuna inanır.

Bununla belə, Avropa Parlamentinə iyunda keçiriləcək seçkilər ərəfəsində prezident Makron və onun “Renessans” blokunun populyarlığının azalması kontekstində Fransa lideri seçicilərin etimadını bərpa etmək üçün yeni yollar axtarır. Belə ki, çərşənbə axşamı media prezident Makronun triatlon və üzgüçülük yarışlarını əhatə edəcək qarşıdan gələn Yay Olimpiya Oyunları zamanı Sena çayında üzməyə hazır olacağı barədə yeni bəyanatından sitat gətirib. “Senadakı su soyuq, lakin təmiz olacaq. Mən bunu şəxsən sübut edə bilərəm”, – deyə E.Makron söz verib. Hazırda Parisdə əlverişsiz ekoloji vəziyyətə görə Sena çayında üzməyə qadağa qoyulub. Bundan başqa, çərşənbə günü prezident Makron xeyriyyə futbol matçında da iştirak edib. Toplanan vəsait Fransa prezidentinin xanımı Bricit Makronun uşaq xəstəxanalarına dəstək verən xeyriyyə fonduna gedəcək. Bax belə…

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Sosial xəbərlər



## Laçında peşə yarmarkası

Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizdə ilk dəfə olmaqla Laçında “Laçında peşə öyrən!” adlı peşə yarmarkası keçirib. Yarmarka Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə təşkil olunub.

Mərasimdə Məşğulluq Agentliyi İdarə Heyəti sədrinin müavini Ülvi Abasquliyev, Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin rəsmisi Hüseyin Quliyev, işəgötürənlər və tədris müəssisələrinin nümayəndələri iştirak ediblər.

Peşə yarmarkasında Laçın şəhəri və Laçının Zabux kəndi əhalisinə rayonda fəaliyyət göstərən 15-ə yaxın işəgötürən tərəfindən 40-dan çox peşə istiqaməti təqdim olunub, ustad dərsləri keçirilib. Yarmarkaya qatılan şəxslərə peşələr və həmin istiqamətlər üzrə tədrisin həyata keçirildiyi müəssisələr barədə məlumat verilib. Bildirilib ki, agentlik işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün peşə kurslarının təşkili işlərini davam etdirir. Kurslara cəlb edilən şəxslərə əmək bazarının tələblərinə uyğun peşələr üzrə bilik və bacarıqlar öyrədilir. Kursları bitirənlər işlə təmin olunurlar.

Yarmarka çərçivəsində, həmçinin “Azərsun Holdinq”in milli markası olan “Azerçay” ilə birgə “Doğma Laçında Çay Festivalı” adlı korporativ sosial məsuliyyət layihəsi də həyata keçirilib. İştirakçılar üçün çay sərgisi, milli mətbəx guşəsi təşkil edilib. Mərasim konsert proqramı ilə davam edib

## “Rehabus” xidməti




Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2022-ci ildən icrasına başladığı “RehaBus” (Reabilitasiya Avtobusu) layihəsi çərçivəsində əlil olan 1410 nəfərə xidmət göstərilib. Bakı və ətraf ərazilərdə yaşayan əlilliyi olan şəxslərin ambulator və icma əsaslı reabilitasiya xidmətlərinə əlçatanlığını artırmağa xidmət edən layihə həmin şəxslərin müvafiq reabilitasiya müəssisəsinə asan, rahat şəkildə çatmasını təmin edir.

Reabilitasiya avtobusları Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunda əvvəlcədən təyin edilmiş gözləmə məntəqələrindən əlil uşaqları (onları müşayiət edən yaxınları ilə birgə) götürərək Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırır. Prosedurlar bitdikdən sonra onlar həmin avtobusla geri qaytarılırlar.

## “Qadın, texnologiyalar və innovasiyalar”

“INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzində Beynəlxalq "İKT-də Qızlar Günü" ilə bağlı “Qadın, Texnologiyalar və İnnovasiyalar” adlı forum keçirilib. Mərasim “Könüllü DOST” proqramı və “ASAN Könüllüləri” Təşkilatı tərəfindən “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzinin və DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin tərəfdaşlığı, ASAN Radio və DOST TV-nin media dəstəyi ilə təşkil olunub.

Forumda “Könüllü DOST” proqramına və “ASAN Könüllüləri” təşkilatına üzv olan 70-dən çox xanım könüllülər iştirak ediblər. Tədbir gənc xanım könüllüləri İKT sahəsinə cəlb etmək, onların bu sahədə fəaliyyətini stimullaşdırmaq məqsədi daşıyıb. Forumda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Layihələrin idarəedilməsi və texnoloji həllər şöbəsinin müdir müavini Aynur Qurbanlı, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin Rəqəmsal İqtisadiyyat şöbəsinin rəhbəri Xəyalə Fətullayeva, “BakuID” investisiya tədbirinin rəhbəri Talifa İsgəndərli, “Zəhra Kosmosda” platformasının təsisçisi, kontent yaradıcısı Zəhra İmanova və “Unibank”ın Digital laboratoriya şöbəsinin back-end üzrə baş mütəxəssisi Süsən Yunisova İKT-də qadınların rolu və şəxsi uğur hekayələri barədə məlumat veriblər.

İKT-də gender bərabərliyinin qadınların hüquq və imkanlarının genişləndirilməsində əsas amillərdən biri olduğu qeyd edilib. İştirakçıların böyük marağına səbəb olan forum sual-cavab sessiyası və “Mədəniyyət Carçısı” proqramının üzvlərinin ifaları ilə yekunlaşdırılıb.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Günün sualı

# İxtisaslı tərbiyəçilər niyə işsiz qalırlar?

## Ölkədə 500 min uşaq, cəmi 2 min bağça var

**Uşaqların intellektual, fiziki və psixoloji inkişafında, şəxsiyyət kimi formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malik olan məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsidir.**

Təhsildə, ilk növbədə, keyfiyyət müəllimdən başlayır. Hazırda isə məktəbəqədər təhsil müəssisələrində qeyri-ixtisaslara sahib olan, ümumiyyətlə isə təhsilsiz şəxslər üstünlük təşkil edir. Yəni bu sahədə kadr çatışmazlığı aşkar görünür. Məktəbəqədər təhsil üzrə diplom alan minlərlə gənc isə illərdir ki, ixtisasları üzrə işlə təmin oluna bilmirlər. Məktəbəqədər müəssisələri də bu sahə üzrə təhsil alan şəxslərin işlə təmin olunmasında ciddi problemlər var və bunları necə aradan qaldırmaq olar?

**Mövzu ilə bağlı təhsil eksperti Elşən Qafarova müraciət etdik. O, qeyd etdi ki, hazırda ölkə üzrə yarım milyondan çox məktəbəqədər təhsilə cəlb olunmalı uşaq var. Amma cəmi 2 mindən bir qədər az məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir:**



– Məktəbəqədər təhsillə bağlı tələbat böyük olduğu üçün bu müəssisələrdə ortalama 17–18 min uşaq təhsil alır. Düzdür, ailə, icma əsaslı, eləcə də qısa müddətli məktəbəqədər təhsil kimi layihələrlə müxtəlif vaxtlarda təhsilə cəlb olunan uşaqların sayında müəyyən irəliləyişlər var. Məktəbəqədər təhsili olan kadrların işlə təminində də çox ciddi problemlər var. Təhsil Nazirliyi müvafiq sahə üzrə qəbul imtahanı keçirir. Amma bu imtahandan keçən şəxsləri işlə təmin etməyə iş yeri yoxdur.

**Ekspert ümumtəhsil məktəblərində məktəbəqədər hazırlıq qruplarında ibtidai sinif müəllimlərinin çalışdığını qeyd etdi. Onların da cəmi 1 həftəlik kurs keçdiklərini dedi:**

– Təklif edirik ki, məktəbəqədər təhsili olan şəxslər hazırlıq qruplarında işə götürülsün. Həmçinin bu məktəbdənkənar təhsil müəssisələrinə də aiddir. Burada bir çox hallarda pedaqoji təhsili olmayan şəxslər işləyiblər və bu, davam edir. Bunlara nümunə kimi, elə şahmat müəllimlərini də göstərə bilərik. Onların çoxu heç bir hüquqi əsası olmayan sertifikatla işə düzəliblər. Azərbaycan hüquqi dövlətdir. Əmək müqaviləsini birtərəfli qaydada pozmaq olmaz. Onların attestasiyasını keçirməklə məsələnin həllinə nail ola bilərik. Bu şərtlə ki, onların ixtisas təhsili əsas götürülməlidir.

Elşən Qafarovun fikirlərinə onu da əlavə edək ki, nəinki məktəbdənkənar şahmat, hətta ümumtəhsil məktəblərində Azərbaycan Dövlət Aqrar Universitetini bitirən şəxslərin ixtisasdəyişmə ilə kimya, biologiya, riyaziyyat müəllimləri kimi çalışdıqlarının şahidi oluruq. Həm məktəbəqədər, həm ümumtəhsil, həm də məktəbdənkənar təhsil müəssisələrində belə hallar var.

**Təhsil eksperti Kamran Əsədov bağçaların körpələrin təlim və tərbiyəsində mühüm rol oynadığını bildirdi:**



– Hazırda ölkəmizdə 1656 dövlət (717 kənd, 939 şəhər), 96 qeyri-dövlət (95 şəhər, 1 kənd) məktəbəqədər təhsil müəssisəsi var. Hər yaş dönəminin özünün xüsusiyyətləri, psixoloji, sosial, emosional standartları var. Uşaqlar o xüsusiyyətlərə, standartlara cavab verə-verə böyüyür. Beləcə, dünya praktikasında uşaq inkişafının standartları meydana çıxır. İndi həmin o standartların tətbiqi üçün uyğun müəssisələr, həm də ixtisaslı kadrlar lazımdır. Amma 1656 dövlət uşaq baxçası cəmi 123 min uşağı qəbul etmək imkanına malikdir ki, bu da baxça yaşlı uşaqların cəmi 25 faizi deməkdir. Ona görə də son illərdə sürətlə özəl uşaq baxçalarının sayı artıb.

Hələ bağçaların sayının çox olduğu Bakı şəhərində məktəbəqədər yaş qrupunda olan uşaqların 25 faizi məktəbə bağçalardan gəlir. Təəssüflər olsun ki, maddi-texniki baza, binalar da bəs eləmir ki, digər 75 faizlik uşaq da bağçalara cəlb olunsun. Dünya təcrübəsindən qeyd edim ki, Amerikanı götürsək, bağçaların 80 faizi özəldir. Həmin bağçalarda olan şərait dövlət hesabında olan məktəbəqədər müəssisələrdən daha yaxşı qurulub. Bununla da dövlətin üzərinə az yük düşür.

Hazırda 2 min 900-a yaxın məktəbdə məktəbəhazırlıq qrupu var. Məktəbəqədər qruplara dərs deyən müəllimlərin dərs saatları ibtidai sinifdə çox olur və əlavə dərs yükü götürməsi mümkün olmur.

Ekspert qeyd etdi ki, ölkəmizdə məktəbəqədər təhsil sahəsində görülmüş müsbət işlərlə yanaşı, bir sıra həllini gözləyən problemlər də mövcuddur. Belə ki, məktəbəqədər təhsildə kurikulumun tətbiqi üzrə müəyyən işlər görülsə də, obyektiv və subyektiv səbəblərdən bir sıra çətinliklər var. Təbii ki, bu problem pedaqoji kadr hazırlığı ilə bilavasitə əlaqədardır. Bu sahədə aparılan işlər zamanın tələbinə cavab vermir. Hazırda respublikanın məktəbəqədər təhsil müəssisələrində 14 min 614 pedaqoji kadr çalışır. Lakin son illərdə onların ixtisasartırması, kurikulumun tətbiqi və müasir təlim texnologiyaları baxımından təkmilləşməsi müəyyən mənada unudulub.

**Bu mövzu ilə bağlı valideynlərin də fikirlərini öyrəndik. Hazırda evdə 2 azyaşlı övladının həm tərbiyəsi, həm də təhsili ilə məşğul olan Günay Ağayeva dedi:**

– Böyük övladım 1 il dövlət bağçasına getdi. Nə şərait, qidalanma, eyni zamanda təhsil qane etmədi. Müəllimlərin peşəkarlığı xüsusilə qənaətbəxş deyil. Uşaqlarla evdə məşğul olmaq məcburiyyətindəyəm. Bu ildən oğlum məktəbə gedəcək.

Sonda onu da qeyd edək ki, respublikanın kənd rayonlarında orta və qeyri-ixtisas təhsilli şəxslərin məktəbəqədər təhsil müəssisələrində pedaqoji kadr kimi işlə təmin olunması problemin daha da dərinləşməsinə gətirib çıxarır. Hətta bəzi bağçalarda müdir kimi çalışan şəxslərin nəinki ixtisas, ümumiyyətlə, təhsillərinin olmaması faktlarına rast gəlinir. Yəni onlar orta ümumtəhsil məktəblərini bitiriblər.

Peşəkar müəllim olmadan təhsilin yüksək səviyyəsindən necə danışa bilərik? Bu da danılmaz faktdır ki, məktəbəqədər təhsil məktəbyaşlı uşaqların hərtərəfli inkişafında mühüm rol oynayır. Bu baxımdan yalnız yüksək savad və biliyə malik ixtisaslı kadrların çalışdığı bağçalara, digər məktəbəqədər təhsil müəssisələrinə gedən uşaqların məktəbə uyğunlaşması daha asan, təlim, tədris nəticələri isə üstün olur.

***Leyla QURBANOVA***
***XQ***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan qara metal prokatının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 6 may 2024-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu - (012) 404-37-00, daxili: 1047.

Ünvan - AZ1003 Bakı, Mikayıl Useynov küçəsi 2.

“Bakı Yastıq Zavodu” ASC səhmdarlarının nəzərinə!

29 iyun 2024-cü il saat 18.00-da “Bakı Yastıq Zavodu” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Təftiş komissiyasının hesabatı.
**2.** İdarə heyətinin hesabatı.
**3.** Digər məsələlər.

Telefon – 012-514-01-43.
Ünvan – AZ1031, Bakı şəhəri, Keşlə qəsəbəsi 31.

***İdarə heyəti***

“Ucar Tikinti Quraşdırma” QSC səhmdarlarının nəzərinə!

15 iyun 2024-cü il saat 11.00-da “Ucar Tikinti Quraşdırma” QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı Ucar şəhəri, Dədə Qorqud küçəsindəki ofisdə keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.Səhmdar cəmiyyətinin 2023-cü ilin yekunlarına aid maliyyə-təsərrüfat fəaliyyətinin hesabatının müzakirəsi .
2.İllik hesabatların təsdiq edilməsi.
3.Təşkilati məsələ.QSC-nin idarəetmə orqanlarının seçilməsi.
4. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.
Əlaqə telefonu+ 99450-221-23-82.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 85 (30489) 27 aprel 2024-cü il, şənbə

**İdman**

## Azərbaycanın ən güclü şahmatçısı

**Kişilər arasında Azərbaycanın ən güclü şahmatçısı bəlli olub.**



Çempionluq uğrunda finalda Aydın Süleymanlı və Məhəmməd Muradlı mübarizə aparıblar. Şahmatçılar arasında ilk partiya heç-heçə başa çatsa da, cavab oyununda Aydın Süleymanlı qələbə qazanıb. Ümumi hesabda 1,5-0,5 hesabı ilə üstün olan A.Süleymanlı karyerasında ilk dəfə Azərbaycan çempionatının qalibi olub.

Üçüncü yer uğrunda hər iki görüşdə Xəzər Babazadəyə qalib gələn Vüqar Rəsulov bürünc medal qazanıb.

## Avropa çempionatında 2 mükafat

**Azərbaycanın boks millisi Serbiyanın paytaxtı Belqradda keçirilən Avropa çempionatını 2 bürünc medalla başa vurub.**



Komandamızın aktivinə mükafatları Malik Həsənov (63,5 kq) və Alfonso Dominqes (92 kq) qazandırıblar.

Millinin heyətində 18 idmançı (13 kişi, 5 qadın) qüvvəsini sınayıb.

## Paraüzgüçümüzün Avropa "bürünc"ü

**Azərbaycan paraüzgüçüsü Raman Saley Portuqaliyanın Madeyra şəhərində keçirilən Avropa açıq çempionatında daha bir mükafat qazanıb.**




İdmançımız yarışın dördüncü günündə 100 metr məsafəyə sərbəst üzmə üsulunda finalda bürünc medal əldə edib.

Qeyd edək ki, bundan əvvəl R.Saley müxtəlif hərəkətlərdə qızıl və gümüş medala sahib olub.

*L.SABİRQIZI*
*XQ*

# Ana laylası – dünyamızın ilkin nəğməsi

**Bəzəkli beşiyində ipək yorğanına bürünüb şirin-şirin yatan, mışıl-mışıl yuxuya gedən körpələr dünyanın ən böyük gözəlliyi və təmizliyidir. Analar ciyərparalarının rahat yatması üçün öz qoynunu, qucağını, hətta kürəyini də beşiyə, yüyrüyə, nənniyə çevirirlər.**



Beşik başında oxunan layla ananın içindən süzülüb gələn doğmalığın, həzinliyin, analığın, onun keçirdiyi hiss və duyğuların ifadəsidir. Layla ümid, arzu, xəyalın uçuşudur. Layla ananın mənəvi dünyasının şah nəğməsidir. Çünki layla körpə üçün ən doğma olan varlığın - ananın səsi ilə – ən gözəl səslə sonsuz və mərhəm bir bağlılığın ifadəsi kimi ruhumuza axır.

Vaxtilə böyük loğman İbn Sina analara xitabən deyirdi: "Körpələrə layla deyin və beşikdə yırğalayın. Onlardan biri uşağın mənəvi cəhətdən, digəri fiziki cəhətdən inkişafına kömək edəcək".

Müasir araşdırmalar da ana laylasının əvəzsiz olduğunu sübut edir. Laylaların hər kəlməsi uşağın şəxsiyyət kimi formalaşmasına xidmət edir. Analarda belə bir inam olub ki, laylalar körpəni şər qüvvələrdən qoruyur. Hətta pislik və xəstəliklərdən də...

Filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Albalıyevin dediyinə görə, laylalar ana dilimizin əlifbasıdır. Körpə ana bətnindən ayrılandan sonra cismən ana südü, mənən ana laylası ilə qidalanır. Körpənin ruhu və yaddaşı layla dünyası ilə təmasdan dinclik- sakitlik tapır, dilimizin şirinliyi körpənin ruhuna, qanına hopur.

Sənətşünaslıq üzrə elmlər doktoru Aytən İbrahimova isə deyib: Laylanın həzin zümzüməsi altında körpə sakitləşir və yuxuya gedir. Layla vasitəsilə körpənin əsəbləri sakitləşir, onun ritm və musiqi duyumu formalaşır. Layla həyatımız boyu bizi müşayiət edir, dünyaya gələndə də onu eşidir, dünyadan köçəndə də ağı ilə layla oxunur.

Tibb üzrə fəlsəfə doktoru, dosent Sevinc Nəsirovanın mövqeyi də maraqlıdır: "Laylalar körpə üçün sakitləşdirici və öyrənmə təsirlərinə malikdir və onu dinləyən yeni doğulmuş uşaq sakitləşir; ananın səsinə reaksiya verərək cavab səsləri çıxarır, bununla da körpənin nitq duyğusu inkişaf edir. Laylalar uşağın xarakterinin formalaşmasına, düşüncə və psixoloji vəziyyətinə təsir göstərir. Beləliklə, körpə sakit, xeyirxah böyüyür. Tədqiqatçıların araşdırmalarına əsasən, erkən yaşlarda layla dinləməyən uşaqlar eqoist və daha az stresə davamlı olurlar. Layla uşağın müəyyən bir yuxu, oyanma və qidalanma rejiminin inkişafına kömək edir".

Psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərova isə laylaların psixoloji təsirini qeyd edir: "Beşiyi başında layla çalınan uşaqlar emosional cəhətdən dayanıqlı olur, stresi qəbul etmir, həyəcan hissinin öhdəsindən vaxtında gələ bilirlər. Layla eşitməyən uşaqlar gələcəkdə daha aqressiv olur, onlarda psixoloji pozuntu hallarına daha çox rast gəlinir. Uşaqların nitqinin inkişafına da laylalar güclü təsir edir, çünki onlar ilk fonetik səslərlə laylalar vasitəsilə tanış olurlar. Bundan başqa, layla eşidən uşaqlarda diqqətin mərkəzləşməsi və inkişafı çox güclü şəkildə gedir".

Lakin laylanı musiqi və melodiya ilə əvəz edənlər də var. Hətta təəssüf ki, son vaxtlar, xüsusilə son illər analar laylaları televiziya və telefondakı musiqilərlə əvəz edirlər. Tədqiqatlar göstərir ki, belə uşaqlarda diqqət əskikliyi sindromu əmələ gəlir, diqqətin cəmlənməsində layla eşidən uşaqlarla müqayisədə geri qalırlar.

Laylalar uşaqlar üçün söz bazası rolu oynayır. Ana layla çaldıqca körpə həmin sözləri yaddaşına həkk edir, sonralar onun təsiri ilə uşağın dili tez açılır. Laylalar həm dəyərlərin, həm də sevginin tərännümüdür. Layla körpənin ana dilində aldığı ilk dərsdir.

Mütəxəssislərin fikrincə, laylanın psixoloji təsiri də böyükdür. Ana-bala arasında sevgi bağları güclənir, uşaqlarda özünəinam hissi daha da artır, dinləmə mədəniyyəti formalaşır. Uşaqlar musiqi dinlədikcə rahatlaşır və onlarda çağalıq və körpəlik dövrünün şıltaqlıqları azalmağa başlayır.

Məsələn, yuxu zamanı və yaxud yuxudan oyananda aqressiv olan uşaqlara layla deyəndə onlar daha rahat yuxuya gedirlər. Gözəl səs və gözəl söz həmişə xoş duyğular oyadır.

*Süleyman QARADAĞLI*

# Daşkənddə uşaq təhsili müzakirəsi

**Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində "Məktəbəqədər təhsil: müasir yanaşma və beynəlxalq təcrübə" mövzusunda beynəlxalq elmi–praktik konfrans keçirilib.**



Elmi məclisdə Özbəkistandan başqa Azərbaycan, Türkiyə, Rusiya, Koreya, Keniya, Qırğızıstanın bir sıra təhsil və elm müəssisələrinin professor və müəllimləri, tələbələr iştirak ediblər.

Konfransı giriş sözü ilə universitetin rektoru, professor Abdugaffor Kirgizbayev açaraq tədbir iştirakçılarını salamlayıb, onlara uğurlar arzulayıb.

Özbəkistandakı Heydər Əliyev Mədəniyyət Mərkəzinin "Azərbaycan dilinin tədrisi və təbliği" layihəsi çərçivəsində Daşkənd universitetlərində Azərbaycan dilini tədris edən filologiya üzrə fəlsəfə doktoru Mətanət Xudiyeva "Azərbaycan təhsil müəssisələrindəki müasir inkişaf tendensiyaları və xarici təcrübələr" mövzusunda çıxış edib. O, Azərbaycan cəmiyyətində uşaqlara hər zaman xüsusi dövlət qayğısının olmasından, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetişməsində təhsil müəssisələrinin xüsusi rolundan danışıb.

Konfransda iştirak edən digər çıxışçılar da təhsil müəssisələrindəki təlim-tərbiyə üsulları, təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi, düzgün aparılan pedaqoji təcrübələr barədə fikir mübadiləsi aparıblar.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*

**Daşkənd**

**Hava**

# Yenə də yağmursuz və dumanlı...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 27-də Bakıda və Abşeron yarımadasında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-şərq küləyi əsəcək. Gecə 14-18°, gündüz 24-29° isti olacaq.**

Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 27-32°, dağlarda gecə 7-12°, gündüz 18-23° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Əflatun Amaşov akademik Yaqub Mahmudova həyat yoldaşı

**ALMAS MAHMUDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi Əməkdar jurnalist, AZƏRTAC-ın keçmiş direktor müavini, Vaqif Musayevə həyat yoldaşı

**SARA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Katibliyi rəisinin müavini Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Katibliyi rəisinin müavini Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Asif Əsgərov Yeni Azərbaycan Partiyası idarə heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov YAP idarə heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov YAP idarə heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov akademik Yaqub Mahmudova həyat yoldaşı

**ALMAS MAHMUDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3882
SİFARİŞ 828
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00